**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**İNFORMASİYA VƏ SƏNƏD MENECMENTİ FAKÜLTƏSİ**

**3356.01 – "Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq" ixtisası üzrə fəlsəfə doktorluğu üçün**

# İXTİSAS İMTAHANININ PROQRAMI

(BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin

Elmi Şurasının 23 fevral 2026-cı il tarixli 05 №-li iclasının qərarı ilə təsdiq edilmişdir).


**Tərtib edənlər:**

Nadir İsmayılov
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Knyaz Aslan
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Elçin Əhmədov
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Sevda Xələfova
tarix üzrə fəlsəfə doktoru, dosent

Proqram dosent Nadir İsmayılovun
ümumi elmi redaktəsi ilə hazırlanmışdır

**Rəyçilər:**
Ələmdar Bayramov
filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent

Zahidə Rzayeva
tarix üzrə fəlsəfə doktoru, dosent

Pərviz Kazimi
tarix üzrə fəlsəfə doktoru, dosent


**Bakı-2026**

## ÜMUMİ MƏSƏLƏLƏR

## GİRİŞ

Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslığın vahid elmi ixtisasda kompleks şəkildə birləşdirilməsini şərtləndirən tarixi zərurət. İnformasiya cəmiyyəti şəraitində kitabın nəşri, toplanması, mühafizəsi və yayımı ilə məşğul olan elm sahələrinin inteqrasiyası və tədqiqatların əlaqələndirilməsi problemləri. Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, kitabşünaslıq və sənədşünaslıq elmlərinin tarixşünaslıq məsələləri. Hər dörd elm sahəsinin tədqiqat obyektinin eyniliyi və bu elmlərin genetik-tarixi əlaqələri.

### 1. Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslığın elmi fənn kimi metodoloji əsasları

Elm anlayışının tərifi və mahiyyəti. Elm mədəniyyətin fundamental tərkib hissəsi kimi. “Elm” və “bilik sahəsi” anlayışlarının komparativ təhlili: oxşar və fərqli cəhətlər. Elmin cəmiyyətdəki vəzifələri, funksiyaları və xüsusiyyətləri. İnstitutlaşma prosesi və elmin inkişaf səviyyəsi.

Elmin fundamental əlamətləri: tədqiqat predmeti, nəzəri-konseptual baza və qanunauyğunluqların mövcudluğu. Bu əlamətlərin kitabxana-informasiya elmləri sistemində təzahür formaları. Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslığın elmi fənn kimi müqayisəli şərhi və metodoloji təhlili.

### 2. Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslığın elmi ixtisas statusu

Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslığın həm praktiki fəaliyyət, həm də nəzəri bilik sahəsi kimi xarakteristikası. Bu sahələrə elm statusu baxımından qeyri-obyektiv və subyektiv yanaşmaların elmi tənqidi. Elmi ixtisas statusunun müəyyənləşdirilməsini şərtləndirən fundamental amillər.

Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslığın xüsusi tədqiqat predmetinin müəyyən edilməsi. Obyekt və predmetin qarşılıqlı əlaqəsi metodoloji problem kimi. Bu elmlərin müstəqil nəzəri bazası: qanun, qanunauyğunluq, prinsip və meyarların işlənilmə səviyyəsi. Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslığın vahid elmi ixtisasda birləşməsini təmin edən inteqrativ amillər və ümumi konseptual cəhətlər.

### 3. Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslığın qarşılıqlı əlaqəsinə dair baxışların təkamülü

Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslığın multidisiplinar əlaqələrinin tarixi zərurəti. Yazı və kitab mədəniyyəti, kitabın sosial vəzifələri və sənədlərin mühafizəsi məsələlərinin vahid sahədə birləşdirilməsi təcrübəsi: XVI-XVIII əsr mütəfəkkirlərinin (K.Gesner, Q.Leybnis, V.Tatişev, M.Denis) baxışları. XIX əsrdə biblioqrafiya, kitabxana işi və kitabşünaslığın “bibliologiya” və “biblioqrafiya” terminləri çərçivəsində identifikasiyası. V.Anastaseviçin “kitab sözlüyü” konsepsiyası.

XIX-XX əsrlərdə bu sahələrin inkişafında Ş.Bryun, K.Ber, F.Ler, V.Sopikov, N.Lisovski, A.Lovyagin, N.Somov, A.Fomin, E.Dobrjinski, N.Rusanov, A.Sidorov, E.Nemirovski, İ.Barenbaum, N.Sikorski, R.Qilyarevski və başqalarının nəzəri baxışlarının rolu.

Kitabşünaslıq və biblioqrafiyaya kitabxanaşünaslığın tərkib hissəsi kimi yanaşma tendensiyaları (M.Şrettinger, K.Dzyaçko, E.Eyxler, A.Fon Xarnak, Q.Leydinger).

A.Pokrovski və V.Nevskinin əsərlərində kitabxanaşünaslığın geniş interpretasiyası və elmi əsaslandırılması.

Kitabşünaslığın biblioqrafiya və kitabxanaşünaslıq üçün universal metodoloji baza kimi çıxış etməsi konsepsiyası (R.Fik, A.İoffe, L.Caxay, N.Slyadneva, E.Nemirovski, İ.Barenbaum və b.). Bu mövqeyin dövlət biblioqrafiya orqanlarının və kitab ticarəti şəbəkəsinin təsnifat sistemlərində inikası.

Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslığın "nisbi muxtariyyət" konsepsiyası (Y.Qriqoryev, A.Vaneyev, A.Xələfov).

Müasir mərhələdə bu elmlərin qarşılıqlı təsir və inteqrasiya qanunauyğunluqları haqqında nəzəriyyələr (A.Barsuk, O.Korşunov, Y.Stolyarov, A.Xələfov, Z.Əliyev, B.Allahverdiyev və b.).

## 4. Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq elmlər sistemində

Kitabxana-informasiya elmləri kompleksinin elmlər sistemindəki yeri və mövqeyi. Elmlər sistemində "Kitabxanaşünaslıq – biblioqrafiyaşünaslıq – kitabşünaslıq" triadasının yerinin müəyyənləşdirilməsinin metodoloji zəruriliyi.

Müxtəlif elmi təsnifat sistemlərində bu sahələrin fərqli nəzəri konsepsiyalar çərçivəsində təsbit edilməsi və həmin təsnifatların metodoloji natamamlığı məsələsi.

Kitabxana-informasiya fənlərinin interdisiplinar xüsusiyyətləri. Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslığa ictimai, humanitar, pedaqoji, informasiya, filoloji, texniki və kulturoloji aspektlərdən yanaşmaların təhlili. Müasir mərhələdə bu elmlərin vahid sənəd-kommunikasiya sisteminin tərkib hissəsi kimi xarakteristikası.

Sosial kommunikasiya paradiqması.

Sənəd-kommunikasiya sistemləri haqqında elmlərin sosial kommunikasiya elmləri kontekstində nəzərdən keçirilməsi. Bu konsepsiyanın tarixi-nəzəri mənbələri və təkamülü: D.Didro (1751), Butenşon (1802), A.Amper (1834), P.Otle (1895), A.Lovyagin (1923), Q.Leydinger (1928), R.Klut (1970), R.Qilyarevski (1971), A.Sokolov (1982), O.Korşunov (1980), Y.Stolyarov, A.Xələfov və Z.Əliyevin (1970-1990-cı illər) tədqiqatlarında sosial-kommunikativ yanaşma. Sosial kommunikasiyalar haqqında elmin müasir ictimai elmlər sistemindəki iyerarxik mövqeyi (Y.Stolyarov, 2002).

Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslığın fundamental humanitar elm sahəsi kimi öyrənilməsinin nəzəri əsasları.

Azərbaycanda kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq fikrinin təşəkkülü və inkişaf tarixi. Qədim və orta əsrlər dövründə Azərbaycanda kitab və kitabxana mədəniyyəti. Azərbaycan kitab mədəniyyətinin ilkin nümunələri: "Avesta", "Kitabi-Dədə Qorqud", "Alban tarixi" əsərləri milli mənəvi irsin yadigarları kimi. Azərbaycan mütəfəkkirlərinin (Nizami Gəncəvi, Xaqani Şirvani, Xətib Təbrizi, Əbülhəsən Bəhmənyar, Nəsirəddin Tusi, Şah İsmayıl Xətai, Rəşidəddin Fəzlullah və b.) kitab və kitabxanaya dair baxışları.

İnstitusional inkişaf. Azərbaycanda saray (dövlət), dini (məscid və mədrəsə) və şəxsi kitabxanaların genezisi. Azərbaycan kitabının təkamül yolu: əlyazma kitablarından çap kitablarına keçid mərhələləri.

Milli biblioqrafiyanın rüşeymləri: Azərbaycanda təzkirəçilik fəaliyyəti və onun əhəmiyyəti. Müasir Azərbaycan kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq elmlərinin inkişafında A.Xələfov, B.Allahverdiyev, X.İsmayılov, Z.Əliyev, N.İsmayılov, K.Aslan, E.Əhmədov, S.Xələfova və digər alimlərin fundamental tədqiqatlarının rolu.

## 5. Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslığın metodologiyası

Metodoloji yanaşmanın konseptual əsasları. Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq sahəsində fundamental elmi baxışın formalaşmasında metodologiyanın həlledici əhəmiyyəti. "Metodologiya" anlayışının polisemantik (çoxmənalı) xüsusiyyətləri və kitabxana-informasiya elmlərində ümumi elmi məzmunu.

Nəzəriyyə və metodun dialektik əlaqəsi. Nəzəriyyənin retrospektiv tədqiqatların nəticəsi və perspektiv tədqiqatların start nöqtəsi (metodoloji fundamenti) kimi çıxış etməsi. Metodun tədqiqatın strateji məqsədlərinə nail olmaq vasitəsi və elmi idrakın çıxış platforması kimi xarakteristikası. Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslığın aktual problemlərinin obyektiv dərki üçün tətbiq edilən üsul, qayda və texnikalar məcmusu.

Xüsusi tədqiqat metodları. Kitabxana-informasiya elmləri sistemində spesifik (xüsusi) metodların mövcudluğu və təsnifatına dair elmi polemikalar. Bu sahədə aparıcı alimlərin (A.Vaneyev, A.Qoldberq, V.Kreydenko, A.Sokolov, İ.Barenbaum, A.Beloviç, Q.Puzikov, A.Çernyak, O.Korşunov, A.Xələfov) konseptual baxışlarının müqayisəli təhlili.

Müasir elmi paradiqmalar. Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslığın inkişafını şərtləndirən müasir nəzəri konsepsiyalar və elmi paradiqmaların təkamülü.

## 6. Sənəd anlayışı, təsnifatı, sənəd axınlarının strukturu və qanunauyğunluqları

Sənədin konseptual mahiyyəti. Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq elmlərinin ümumiləşdirilmiş obyekti kimi "sənəd" anlayışı. Sənəd menecmentinin elmi əsasları. Milli və xarici elmi ədəbiyyatda "sənəd" anlayışının şərhi: P.Otle və ardıcıllarının universal sənəd konsepsiyası. Sənəd anlayışının həcmi, ontoloji və fenomenoloji statusu. Sənədin substansional (maddi-mənəvi) və funksional (sosial-kommunikativ) aspektləri. Sənəd statusunun müəyyənləşdirilməsinin fundamental kriteriyaları.

Sənədlərin təsnifat sistemləri. Sənədlərin müxtəlif tipoloji əlamətlərə görə təsnifatı. Maddi daşıyıcının xüsusiyyətlərinə görə sənəd növləri. İnformasiyanın maddi daşıyıcı ilə vəhdəti problemi. Kitab – sənədin ən mükəmməl tarixi-məni forması kimi.

Elektron sənəd və rəqəmsal mühit. Elektron sənədlərin təsnifatı problemləri. "Elektron sənəd", "elektron kitab" və "elektron nəşr" anlayışlarının terminoloji müəyyənləşdirilməsi məsələləri. Kitabxanaşünas, biblioqrafiyaşünas və kitabşünasların rəqəmsal resurslara konseptual münasibəti. İ. Barenbaum və R. Qilyarevskinin tədqiqatlarında "kitab" və "sənəd" anlayışlarının qarşılıqlı əlaqə qanunauyğunluqları. Elektron kitabın hazırlanması və yayılmasının kitabşünaslıq aspektləri.Sənəd menecmenti anlayışı.

İnformasiya-kommunikasiya texnologiyalarının təsiri. Müasir sənəd nəşri və yayımı tendensiyalarını müəyyən edən redaktə, yığım və poliqrafik çoxaldılma proseslərinin kompüterləşdirilməsi. "Virtual kitab mağazası" və "Virtual kitabxana" fenomenləri. Elektron nəşrlərin elmi təsnifatı problemi.

Sənəd axınları və resurslar. Sənəd axınlarının strukturu, dinamikası və paylanma qanunauyğunluqları. Müasir dövlətlərin mənəvi potensialının ümumi sistemində kitab, kitabxana və biblioqrafik resursların strateji mövqeyi.

## 7. Oxucu – sənəd-informasiya resurslarının istifadəçisi kimi

Oxucu problemi fəaliyyət kontekstində. Kitabxana, biblioqrafiya və kitab işi sistemlərinin mühüm komponenti kimi sənəd istifadəçisinin xarakteristikası. Oxucuşünaslıq problemlərinin tədqiqində tarixi təcrübə və metodoloji yanaşmalar.

Mütaliənin interdisiplinar tədqiqi.

Bibliososiologiya və bibliopsixologiya: Mütaliə prosesinin sosial və psixoloji aspektləri. N. Rubakin bibliopsixologiyanın klassiki və nəzəriyyəçisi kimi.

Bibliopedaqogika və bibliosofiya: Kitab və oxucu münasibətlərinin pedaqoji və fəlsəfi aspektləri.

Kitabxana-biblioqrafiya sistemində istifadəçi faktoru. "Kitabxana" sisteminin funksional elementi kimi istifadəçinin elmi tədqiqi. Sənəd və informasiya tələbatçısının qarşılıqlı əlaqəsi biblioqrafik fəaliyyətin konseptual əsası kimi. Biblioqrafik fəaliyyətin strukturu və istifadəçi yönümlülüyü. Kitabşünaslıq elmində "oxucuşünaslıq" konsepsiyasının yeri və rolu.

Müasir mütaliə mühiti və texnoloji transformasiyalar. Kitab və mütaliə sosiologiyasının XX əsrin ikinci yarısındakı inkişaf dinamikası: əsas elmi nəticələr və perspektiv vəzifələr. Rəqəmsal mühitdə oxucu profili: hipermətn və multimedia resurslarından istifadə problemləri. Mütaliə mədəniyyəti və sənəd-informasiya istehlakı problemlərini tədqiq edən aparıcı elmi məktəblər və müəlliflər.

Azərbaycanda oxucu və mütaliə problemlərinin tədqiqi. Milli kitabxanaşünaslıq elmində oxucu probleminin öyrənilmə mərhələləri. A. Xələfov, S. Rzayev, K. Aslan, E. Əhmədov və başqa alimlərin oxucu və informasiya istifadəçisinin nəzəri-tipoloji xüsusiyyətlərinə dair elmi baxışları.

## 8. Elektron kitabxanaşünaslıq

Kitab mədəniyyətinin rəqəmsal transformasiyası. Ənənəvi kitab formatından elektron nəşrə keçid prosesləri. Elektron sənəd resurslarının (ehtiyatlarının) formalaşması və inkişaf mərhələləri. 1990-cı illərdə elektron kitabxanaların təşəkkülü və institusionallaşması.

Elektron kitabxana inteqrativ sistem kimi. Elektron kitabxananın kitabxana, biblioqrafiya və kitab işi daxil olmaqla sənəd-kommunikasiya sisteminin müxtəlif altsistemlərinin konvergensiyası (birləşməsi) kimi xarakteristikası. Elektron kitabxanaların elmi-nəzəri konsepsiyasının təkamülü və müasir vəziyyəti. Elektron kitabxana ideyasının konseptual əsaslandırılmasında kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq elmlərinin qarşısında duran strateji vəzifələr.

Nəzəriyyə və praktika. Elektron kitabxana konsepsiyasının işlənilməsində və tətbiqində Y. Şrayberq və A. Zemskovun elmi fəaliyyətinin rolu. Elektron kitabxanaşünaslıq və rəqəmsal kitabxana işinə dair yeni terminoloji aparatın (anlayış və kateqoriyaların) formalaşması. Elektron kataloqlar: ənənəvi biblioqrafik təsvirdən maşınla oxunan (MARC) formatlara keçid.

Azərbaycanda rəqəmsal kitabxana mühiti. Azərbaycanda elektron kitabxanaların yaradılması ideyaları və onların nəzəri-metodoloji əsaslarının hazırlanması. Milli rəqəmsal kitabxanaların (e-kitabxana) formalaşma xüsusiyyətləri, müasir vəziyyəti və perspektivləri. İnformasiya cəmiyyəti kontekstində kitabxana şəbəkələrinin avtomatlaşdırılması. Süni intellect və informasiya etikası.

## 9. Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslığın hüquqi-normativ bazası

Hüquqi tənzimləmənin əsasları. Kitabxana-informasiya sahəsində normativ baza anlayışının mahiyyəti və strukturu. Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq fəaliyyətini tənzimləyən normativ-hüquqi aktların iyerarxiyası. Sahəvi qanunvericiliyin təkmilləşdirilməsi və müasir dövrün tələblərinə uyğun inkişaf etdirilməsi problemləri. Mövcud hüquqi bazanın vəziyyətinin elmi-nəzəri təhlili.

Milli qanunvericilik sistemi. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu. "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının Qanunu. Qanunların struktur

xüsusiyyətləri, əsas müddəaları və strateji əhəmiyyəti. Qanunvericilik aktlarının kitabxana-informasiya müəssisələrinin fəaliyyətində fundamental hüquqi sənəd kimi rolu.

Standartlaşdırma və terminoloji unifikasiya. Normativ-terminoloji bazanın – İnformasiya, kitabxana və nəşriyyat işi üzrə standartlar sisteminin (SİBİD) təkmilləşdirilməsi məsələləri. Milli SİBİD standartlarının beynəlxalq (İSO) standartlar sisteminə adaptasiyası və uyğunlaşdırılması problemləri. Kitabxana-informasiya terminologiyasının unifikasiyası (vahid şəklə salınması) və rəqəmsal mühitin tələblərinə uyğun yenilənməsi.

## 10. Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq sahəsində elmi-təşkilati məsələlər

Elmi tədqiqat fəaliyyətinin strukturu. Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq sahəsində elmi tədqiqat işlərinin (ETİ) planlaşdırılması və təşkili prinsipləri. Aparıcı elmi tədqiqat və təhsil mərkəzləri: Bakı Dövlət Universitetinin İnformasiya və sənəd menecmenti fakültəsi, Azərbaycan Milli Kitabxanası, AMEA-nın Mərkəzi Elmi Kitabxanası (MEK) və digər profilli müəssisələrin elmi fəaliyyət istiqamətləri.

Yüksəkixtisaslı kadr potensialının formalaşdırılması. Elmi və elmi-pedaqoji kadrların hazırlanması sistemi: magistratura və doktorantura mərhələləri. 3356.01 – Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq ixtisası üzrə fəaliyyət göstərən dissertasiya şuralarının iş prinsipi və elmi-metodoloji əhəmiyyəti.

Elmi-informasiya təminatı və nəşriyyat fəaliyyəti. Kitabxana-informasiya elmləri üzrə fundamental və tətbiqi tədqiqatları dərc edən qurumlar. Sahəvi dövri elmi nəşrlərdə (jurnal, məcmuə, bülleten) 3356.01 ixtisasının aktual problemlərinin inikası və elmi diskursun inkişafı.

Milli elmi məktəblər. Azərbaycanda kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq elmlərinin inkişafını təmin edən konseptual elmi məktəblər. Professor Abuzər Xələfovun elmi məktəbi: genezisi, əsas tədqiqat istiqamətləri və müasir inkişaf perspektivləri.

## YOXLAMA SUALLARI

1. Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq elmlərinin metodoloji əsasları və tədqiqat obyektləri.
2. Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslığın elmi ixtisas statusu və institutlaşma xüsusiyyətləri.
3. Kitabxana-informasiya elmlərinin interdisiplinar əlaqələrinə dair konseptual baxışların tarixi təkamülü.
4. Kitabxana-biblioqrafiya və kitabşünaslıq fənlərinin ümumi və xüsusi tədqiqat metodları.
5. “Sənəd” anlayışı kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslığın universal kateqoriyası kimi.
6. Sənəd-kommunikasiya sistemləri: biblioqrafik informasiyanın, kitabxana resurslarının və çap məhsullarının sosial funksiyalarının reallaşma mühiti kimi.
7. Azərbaycan Respublikasının sahəvi qanunvericilik bazası: kitab, kitabxana və biblioqrafiya işinin hüquqi tənzimlənməsi.
8. Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq elmlərinin genetik və funksional vəhdəti.
9. Kitabxana-informasiya sahəsində elmi tədqiqat işlərinin (ETİ) təşkili və elmi-metodiki mərkəzlərin fəaliyyəti.
10. Sənədin ontoloji və fenomenoloji mahiyyəti: kitabxana-informasiya elmlərinin obyekt-predmet əlaqələri kontekstində.

11. Elektron sənəd anlayışının nəzəri-metodoloji şərhi və rəqəmsal transformasiya problemləri.

12. Kitab və sənəd məhsullarının oxucu-istifadəçi auditoriyası: sosioloji və psixoloji aspektlər.

13. Azərbaycanda kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq üzrə elmi məktəblər və onların inkişaf istiqamətləri.

14. Kitabxana-informasiya elmlərinin terminoloji sistemi və standartlaşdırma (SİBİD) problemləri.

15. Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslığın kəsişmə sferasında aktual diskurslar və mübahisəli konseptlər.

## KİTABXANAŞÜNASLIQ

### 1. Kitabxanaşünaslığın elmi-nəzəri statusu və təkamülü

Kitabxanaşünaslıq elminin genezisi. Kitabxanaşünaslığın elmi statusunun xarakteristikası və nəzəri cəhətdən əsaslandırılması. Kitabxanaşünaslıq fikrinin meydana gəlməsi və tarixi inkişaf mərhələləri. "Protokitabxanaşünaslıq (tarixəqədərki)" dövrü (e.ə. II minillikdən XVIII əsrə qədər olan dövrün kitabxana təcrübəsi). XIX–XX əsrlərdə kitabxanaşünaslığın müstəqil elm sahəsinə çevrilməsi. M.Şrettinger tərəfindən "kitabxanaşünaslıq" termininin elmi dövriyyəyə daxil edilməsinin tarixi və konseptual əhəmiyyəti. Praktiki kitabxanaçılıq biliklərinin fundamental elmi sistemə transformasiyası prosesi.

Kitabxanaşünaslığın obyekti, predmeti və strukturu. Kitabxanaşünaslığın humanitar elm sahəsi kimi formalaşmasının elmi əsaslandırılması. Sahənin ictimai elmlərlə qarşılıqlı əlaqəsi və humanitar biliklər sistemindəki mövqeyi. Müasir mərhələdə bu problemin professor A. Xələfov tərəfindən tədqiqi və əldə olunan fundamental elmi nəticələr. "Kitab – kitabxana – insan" triadası kitabxanaşünaslığın mərkəzi tədqiqat obyekti kimi.

Sistemli yanaşma və müasir paradiqmalar. Müasir kitabxanaşünaslığın mahiyyəti, obyekti və predmeti haqqında elmi konsensus. Kompleks və sistemli yanaşmanın kitabxanaşünaslıq obyektinin müəyyənləşdirilməsində metodoloji rolu. Kitabxananın üzvi bütövlüyə malik dördkomponentli sistemi: Sənədləşdirilmiş informasiya (nəşr formaları); Oxucu (istifadəçi); Kitabxanaçı (mütəxəssis); Maddi-texniki baza.

Kitabxanaşünaslığın funksional strukturu. Kitabxanaşünaslıq biliklərinin diferensiasiyası və inteqrasiyası. Ümumi və xüsusi kitabxanaşünaslıq bölmələrinin əlaqələndirilməsi. Kitabxanaşünaslığın idrakı, proqnostik və sosial funksiyaları.

### 2. Kitabxanaşünaslığın metodologiyası və metodikası

Metodoloji əsaslar və nəzəri-praktiki vəhdət. Metodologiya haqqında təlim kitabxanaşünaslıq nəzəriyyəsinin və təcrübəsinin fundamental elmi əsası kimi. Kitabxanaşünaslığın daxili qanunauyğunluqlarının, prinsiplərinin və metodiki tövsiyələrinin işlənilməsində metodologiyanın həlledici rolu.

Kitabxanaşünaslığın tədqiqat üsulları. Kitabxanaşünaslıq tədqiqatlarının sistemli xarakteri. Müasir kitabxanaşünaslıq tədqiqatlarında tətbiq edilən ümumi elmi metodlar (analiz və sintez, induksiya və deduksiya, modelləşdirmə, tarixi-məntiqi yanaşma). Kitabxanaşünaslıq üçün spesifik olan xüsusi (sahəvi) metodlar: kitabxana statistikası, biblioqrafik təsvir və təsnifat metodları, kitabxana sosiologiyası və psixologiyasının tətbiqi üsulları.

Müasir elmi yanaşmalar. Sistemli, struktur-funksional və yaradıcı-innovativ metodlar müasir kitabxanaşünaslıq tədqiqatlarının əsas meyarı kimi. Kitabxanaşünaslığa dair müasir elmi konsepsiyalar və paradiqmaların dinamikası.

Elmi tədqiqatların təşkili və tətbiqi. Kitabxanaşünaslıq tədqiqatlarının elmi-təşkilati əsasları: əhaliyə kitabxana-informasiya xidmətinin optimallaşdırılmasında elmi faktorun rolu. Kitabxanaşünaslıq tədqiqatlarının əsas mərhələləri: problemin qoyuluşu, hipotezin formalaşdırılması, empirik məlumatların toplanması və interpretasiyası. Elmi tədqiqatların nəticələrinin rəsmiləşdirilməsi, dissertasiya və elmi məqalə formasına gətirilməsi. Elmi nəticələrin kitabxana praktikasına tətbiqi (implementasiyası) və səmərəliliyinin qiymətləndirilməsi.

### 3. Kitabxanaşünaslıq elmlər sistemində

Kitabxanaşünaslığın fənlərarası (interdisiplinar) mövqeyi. Elmlər sistemində kitabxanaşünaslığın yerinin müəyyənləşdirilməsinin metodoloji əhəmiyyəti. Kitabxanaşünaslığın humanitar, sosial, informasiya və kulturoloji elmlər kompleksinin tərkib hissəsi kimi nəzəri əsaslandırılması. Kitabxanaşünaslığın fəlsəfə, sosiologiya, tarix, iqtisadiyyat, riyaziyyat, pedaqogika, psixologiya, informatika və mədəniyyətşünaslıqla struktur-funksional əlaqələri.

Psixologiya və sosiologiya ilə inteqrasiya.

Kitabxanaşünaslıq və psixologiya: Mütaliə prosesinin psixoloji aspektlərinin tədqiqi; bibliopsixologiya və oxucuşünaslıq sahələrinin formalaşması.

Kitabxanaşünaslıq və sosiologiya: Sosial təsisat kimi kitabxananın cəmiyyətdəki rolu; sərhəd elm sahəsi kimi mütaliə sosiologiyasının elmi-nəzəri əsaslarının işlənilməsi.

Pedaqogika və fəlsəfə ilə qarşılıqlı əlaqələr.

Kitabxanaşünaslıq və pedaqogika: Pedaqoji konsepsiyaların uşaq və gənclərin mütaliəsinə rəhbərlik nəzəriyyəsində tətbiqi; kitabxanaşünaslıq tədqiqatlarında yaş və sosial pedaqogika metodlarından istifadə.

Kitabxanaşünaslıq və fəlsəfə: Fəlsəfə, məntiq və sosiologiya kitabxanaşünaslığın metodoloji fundamenti kimi. Kitabxanaşünaslıq fəlsəfəsinin (bibliosofiya) mahiyyəti və onun öyrənilməsinin elmi-metodiki əhəmiyyəti.

İnformatika və rəqəmsal transformasiya. Kitabxanaşünaslıq və informatikanın inteqrasiyası: əsas konseptual yanaşmaların təhlili. Kitabxanaların avtomatlaşdırılması və kompüterləşdirilməsi prosesində informatikanın nəzəri-praktiki potensialından istifadə. Elektron kitabxanaşünaslıq fənninin təşəkkülü. Professor A.Xələfovun elektron kitabxana işi və rəqəmsal kitabxanaların kitabxanaşünaslıq sistemindəki yeri haqqında konseptual baxışları.

Kulturoloji və sənəd-kommunikativ əlaqələr.

Kitabxanaşünaslıq və mədəniyyət nəzəriyyəsi: Kitabxanaya mədəniyyət fenomeni və xüsusi kulturoloji fənn kimi yanaşmanın elmi əsaslandırılması.

İnteqrativ əlaqələr: Kitabxanaşünaslığın kitabşünaslıq, sənədşünaslıq və biblioqrafiyaşünaslıqla qarşılıqlı münasibətləri. Bu elmlərin diferensiasiyası (ayrılması) və konvergensiyasına (birləşməsinə) dair müasir konsepsiyaların müqayisəli təhlili.

### 3. Kitabxanaşünaslığın fundamental kateqoriyaları
#### 3.1. Kitabxana haqqında nəzəri təlim

Kitabxananın konseptual mahiyyəti. Kitabxana haqqında təlim kitabxanaşünaslıq elminin mərkəzi kateqoriyası kimi. Kitabxananın müasir elmi konsepsiyaları: sosial yaddaşın depozitariyası, mədəni-intellektual potensialın ötürücüsü, şəxsiyyətin sosiallaşması institutu və mühüm sosial-mədəni fenomen kimi xarakteristikası.

Kitabxanaların tipologiyası və struktur modelləri. Kitabxanaların təsnifatı fundamental elmi problem kimi. Elektron kitabxana – ənənəvi kitabxana institutunun müasir texnoloji modifikasiyası və rəqəmsal transformasiyası kimi. Kitabxananın daxili strukturu və onun komponentləri. Müasir kitabxananın dördkomponentli sistem modeli: Sənəd (İnformasiya resursu); Oxucu (İstifadəçi); Kitabxanaçı (Mütəxəssis); Maddi-texniki baza.

C.X.Şira və digər klassik nəzəriyyəçilərin kitabxananın elementar strukturu haqqında konseptual baxışları.

Sənəd resursları və fondun təşkili. Sənədlərin tipoloji xüsusiyyətləri, formaları və təsnifatı. Kitabxana fondu: formalaşdırılması, sistemləşdirilməsi və mühafizəsinin elmi əsasları. Kitabxana fondunun "kainatın inikası" (universalizm) prinsipi əsasında qurulması

konsepsiyaları. Elektron kataloqlarda və verilənlər bazalarında (Big Data) kitabxana fondlarının inikası və əlçatanlığının nəzəri-metodoloji əsasları.

İstifadəçi faktoru və mütaliə mədəniyyəti. Oxucu kitabxana sisteminin dinamik elementi kimi. “Oxucu”, “abonent”, “tələbatçı” və “istifadəçi” terminlərinin elmi-funksional interpretasiyası. Kitabxana-istifadəçi münasibətləri, mütaliənin sosiopsixoloji aspektləri və bu prosesin ictimai-strateji əhəmiyyəti.

Kitabxanaçı peşəsinin statusu və etika. Kitabxanaçı kitabxanaşünaslığın mərkəzi subyekti kimi. Kitabxanaçı peşəsinin deontologiyası və peşə etikasının formalaşma prinsipləri. Görkəmli kitabxanaşünasların kitabxanaçı kadrların intellektual profili haqqında mülahizələri. İnformasiya cəmiyyəti və süni intellekt dövründə kitabxanaçının dəyişən rolu və yeni kompetensiyaları.

Maddi-texniki və texnoloji baza. İnformasiya cəmiyyəti şəraitində kitabxana infrastrukturunun müasirləşdirilməsi. Maddi-texniki bazanın kitabxananın funksional səmərəliliyini təmin edən həlledici element kimi elmi-təşkilati təhlili.

### 3.2. Kitabxanaların sosial funksiyaları və tipologiyası

Funksional yanaşma və kitabxana institutu. Kitabxanaşünaslıqda “funksiya” anlayışının mahiyyəti və təsnifatı. Kitabxana fəaliyyətinin daxili dinamikasını təmin edən texnoloji funksiyalar (fondun formalaşdırılması, işlənməsi və mühafizəsi). Kitabxananın cəmiyyət qarşısındakı missiyasını müəyyən edən sosial funksiyalar və onların iyerarxiyası.

Hüquqi-strateji tənzimləmə. “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanununda kitabxanaların sosial funksiyalarının hüquqi təsbit edilməsi. “Azərbaycan mədəniyyəti – 2040” Strategiyası kontekstində kitabxanaların yeni sosial vəzifələri: rəqəmsal inklüzivlik, ömürboyu təhsilin dəstəklənməsi və milli-mədəni irsin rəqəmsallaşdırılması.

Tarixi təkamül və inteqrativ funksiyalar. Kitabxanaların tarixi inkişaf prosesində təşəkkül tapmış fundamental sosial funksiyaları: elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə funksiyalarının qarşılıqlı əlaqəsi, dialektik vəhdəti və müasir sənəd-kommunikasiya mühitində transformasiyası.

Kitabxanaların elmi tipologiyası. Kitabxanaların təsnifat meyarları və tipoloji differensiasiyası.

Milli kitabxanalar: statusu, xüsusi dövlət vəzifələri, milli nəşrlərin arxivləşdirilməsi və metodoloji mərkəz kimi rolu.

Universal elmi və kütləvi kitabxanalar: struktur xüsusiyyətləri, istifadəçi kontingenti və xidmət spesifikası.

Xüsusi və sahəvi kitabxanalar: elmi-texniki, tibbi, kənd təsərrüfatı və s. profilli kitabxanaların elm və istehsalatda yeri.

Təhsil kitabxanaları: ali məktəb və orta təhsil müəssisələrinin kitabxanaları tədris-metodik bazanın komponenti kimi.

### 3.3. Kitabxana işinin nəzəri-təşkilati əsasları

Kitabxana işinin konseptual mahiyyəti. Kitabxana işi haqqında anlayış və onun daxili strukturu. “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanununda sahənin fəaliyyət sferası və sosial-hüquqi statusunun elmi-hüquqi şərhi. Kitabxana işinin sənəd-kommunikasiya sistemindəki mövqeyi.

Kitabxana sistemləri və şəbəkələrinin arxitekturası. Sistemli yanaşma metodologiyasının kitabxana quruculuğuna tətbiqi. Kitabxana sistemlərinin formalaşmasının ümumi qanunauyğunluqları və struktur təşkili prinsipləri. Azərbaycan Respublikasının vahid kitabxana sistemi: dövlət, bələdiyyə və özəl kitabxanaların qarşılıqlı əlaqəsi. Sahəvi (nazirlik, idarə və müəssisə tabeliyində olan) kitabxana şəbəkələrinin fəaliyyət xüsusiyyətləri.

Professor A.Xələfovun kitabxanaların təsnifatı və sistemləşdirilməsi barədə fundamental konsepsiyası.

Mərkəzləşdirilmiş Kitabxana Sistemləri (MKS). Kitabxana sistemlərinin formalaşması və inkişaf dinamikası. Mərkəzləşdirilmiş kitabxana sistemləri – kitabxana işində sistemli-struktur yanaşmanın praktiki təzahürü kimi. Azərbaycanda mərkəzləşdirilmiş kitabxana şəbəkələrinin təşəkkülü, formalaşma mərhələləri və idarəetmə mexanizmləri. Kütləvi kitabxana şəbəkələrinin struktur optimallaşdırılması və müasir idarəetmə modelləri.

Kitabxana fəaliyyətinin fundamental prinsipləri. Kitabxana işinin elmi-nəzəri prinsipləri haqqında ümumi konsepsiya. Kitabxanaların hamı üçün açıqlığı (universal əlçatanlıq) və dövlət himayəsi (maliyyələşdirilməsi) kitabxana işinin demokratik və humanist əsasları kimi. İnformasiya azadlığı və intellektual mülkiyyətin qorunması prinsiplərinin kitabxana fəaliyyətində vəhdəti.

### 4. Kitabxanaşünaslığın strukturu

Kitabxanaşünaslığın tədris fənni kimi strukturu. Kitabxanaşünaslıq elminin sistemli bir fənn kimi formalaşmasında elmşünaslığın fundamental müddəalarının rolu. Kitabxanaşünaslığın strukturlaşmasında elmi komponentlərin tətbiqi: elmi qanunlar (kitabxana proseslərinin daxili qanunauyğunluqları), elmi prinsiplər (obyektivlik, varislik, sistemlilik) və elmi nəzəriyyələr.

Elmşünaslıq metodologiyasının tətbiqi. Kitabxanaşünaslığın idrak bazasını formalaşdıran elementlər: Anlayış aparatı: elmin fundamental terminoloji sisteminin müəyyənləşdirilməsi. Tədqiqat metodları: ümumi-elmi və xüsusi (spesifik) metodların vəhdəti. Empirik baza: faktların toplanması, elmi müşahidələr, fərziyyələrin irəli sürülməsi və təcrübə məlumatlarının ümumiləşdirilməsi.

Kitabxanaşünaslığın elmi və tədris sistemi kimi formalaşması. Elmşünaslıq müddəalarından istifadənin kitabxanaşünaslığın akademik statusunun möhkəmləndirilməsində əsas vasitə kimi xarakteristikası.

Kitabxanaşünaslıq dövrəsinə daxil olan tədris fənləri. Struktur bölmələrinin — ümumi kitabxanaşünaslıq, kitabxana fondları, kitabxana kataloqları, kitabxana xidməti, kitabxana işinin idarə edilməsi (menecment) və kitabxana texnologiyaları fənlərinin xarakteristikası. Bu fənlərin bir-biri ilə üzvi qarşılıqlı əlaqəsi və kitabxana işinin vahid sistem kimi öyrənilməsində rolu.

### 4.1. Kitabxanaşünaslığa giriş

"Kitabxanaşünaslığa giriş" fənninin nəzəri-metodoloji əsasları. Kursun kitabxanaşünaslıq elminin fundamental bazası kimi rolu və əhəmiyyəti. Müasir kitabxanaşünaslıq elminin mahiyyəti, inkişaf meylləri və sosial-mədəni sferadakı statusu.

Kitabxanaşünaslığın obyekti və predmeti. Tədqiqat obyektinə dair müasir konseptual yanaşmalar: "kitabxana işi" və "kitabxana-informasiya fəaliyyəti" sistemli obyekt kimi. Elmin predmetinin daxili strukturunun (qanunauyğunluqlar, prinsiplər və əlaqələr) müəyyənləşdirilməsi.

Kitabxanaşünaslığın funksiyaları və strukturu. Elmin idrakı (qnoseoloji), metodoloji, praktiki-tətbiqi və proqnozlaşdırma funksiyalarının xarakteristikası. Kitabxanaşünaslıq elminin struktur bölmələri və onların qarşılıqlı münasibətləri.

Kitabxanaşünaslıq biliklərinin sistemləşdirilməsi. Biliklərin diferensiasiyası (yeni sahəvi bölmələrin ayrılması) və inteqrasiyası (digər elmlərlə əlaqələndirilməsi). Kitabxanaşünaslığın informatika, kulturologiya, sosiologiya, pedaqogika və psixologiya kimi elmlərlə fənlərarası əlaqəsi.

Kitabxanaşünaslığın metodologiyası. Tədqiqatlarda istifadə edilən metodlar sisteminin təsnifatı: Ümumi elmi metodlar. Xüsusi (spesifik) metodlar.

**4.2. Azərbaycanda kitabxana işinin tarixi**

Kursun metodoloji əsasları. "Azərbaycanda kitabxana işinin tarixi" kursunun predmeti, məqsədi və əhəmiyyəti. Sahə üzrə tarixi tədqiqatların tarixşünaslıq təhlili. Professor Abuzər Xələfov Azərbaycanda kitabxana işinin tarixi kursunun yaradıcısı və ilk fundamental tədqiqatçısı kimi.

Antik və orta əsrlər dövrü. Ən qədim dövrlərdən VII əsrə qədərki dövrdə yazı mədəniyyəti. Midiya və Albaniya ərazisində kitab və kitabxanalar. VII-XII əsrlərdə İslam mədəniyyətinin təsiri: Məscid və mədrəsə kitabxanalarının təşəkkülü. Nizami Gəncəvi yaradıcılığında kitab və kitabxanaya münasibət. ictimai, saray, dini və şəxsi kitabxanaların tipologiyası. Azərbaycan xalqının intibah abidəsi – “Kitabi-Dədə Qorqud”.

XIII-XVIII əsrlərdə kitabxana mədəniyyəti. Marağa Rəsədxanasının kitabxanası (Nəsirəddin Tusi) və Təbriz kitabxanaları. Azərbaycan feodal dövlətlərinin (Ağqoyunlu və Qaraqoyunlu) saray kitabxanaları. Səfəvilər dövründə kitabxana işinin yüksəlişi: Şah İsmayıl Xətainin fəaliyyəti, Ərdəbildə Şeyx Səfi məqbərəsinin kitabxanası. Orta əsr kitabxanalarının strukturu və fondların mühafizəsi.

XIX əsr və XX əsrin əvvəlləri. Maarifçilik hərəkatı və kitabxanaların dünyəviləşməsi. Nəriman Nərimanov tərəfindən ilk ümumaçıq kitabxana-qiraətxananın təşkili (1894). Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) dövründə kitabxana quruculuğu və milli mədəniyyətin intibahı istiqamətində ilk dövlət tədbirləri.

Sovet dövrü kitabxana quruculuğu. Milli Kitabxananın (1923) yaranması. 1920-1930-cu illərdə "Kitabxana yürüşü". Azərbaycan SSR XKS-nin "Azərbaycan SSR-də kitabxana işi haqqında" (1935) qərarı. İkinci Dünya müharibəsi və müharibədən sonrakı (1946-1950) bərpa dövründə kitabxana şəbəkəsinin (kütləvi, uşaq, məktəb, elmi və xüsusi kitabxanalar) inkişafı.

Ali kitabxanaçılıq təhsili. Azərbaycanda peşəkar kitabxanaçı kadrların hazırlanması tarixindən. BDU-da Kitabxanaçılıq şöbəsinin (1947) və fakültəsinin (1962) təşkili və elmi məktəbin formalaşması.

Ulu Öndər Heydər Əliyev və kitabxana quruculuğu mərhələsi. 1970-1980-ci illərdə kitabxana şəbəkəsinin mərkəzləşdirilməsi və maddi-texniki bazanın möhkəmləndirilməsi. Müstəqillik dövründə (1990-2000) kitabxana işində demokratikləşmə prosesi. 1990-cı illərin əvvəllərindəki ictimai-siyasi tənəzzülün kitabxana sisteminə mənfi təsiri. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə kitabxana şəbəkəsinin dağılmaqdan xilas edilməsi. Ulu Öndər Heydər Əliyevin Milli Kitabxanada tarixi çıxışları və kitabxana işinin dövlət əhəmiyyətli strateji sahə kimi elan olunması.

Müasir mərhələ. Prezident İlham Əliyevin kitabxana-informasiya sahəsinə dair dövlət doktrinası. Elektron kitabxanaların yaradılması, kitabxanaların rəqəmsallaşdırılması və kitabxana işi haqqında qanunvericilik bazasının təkmilləşdirilməsi. Kitabxanaşünaslığın müasir elmi prioritetləri.

Prezident İlham Əliyevin kitabxana-informasiya sahəsinə dair doktirinası. Kitabxanaçılıq və informasiya fəaliyyəti üzrə təhsilinin yenidən qurulması, kitabxanaşünaslığın inkişafi.

“Azərbaycan mədəniyyəti – 2040” Strategiyası və müasir kitabxanaların vəzifələri.

**4.3. Dünya ölkələrində kitabxana işinin tarixi**

Qədim dövr kitabxanaları. Yazılı kommunikasiyanın ilkin formaları və ilk kitab anbarlarının təşəkkülü. Şumer, Babil və Assuriya kitabxanaları; Nineviyada Aşşurbanipal kitabxanası. Qədim Misirdə məbəd kitabxanaları. Antik dövrün fundamental kitabxanaları:

İsgəndəriyyə və Perqam kitabxanaları, onların quruluşu, fondlarının komplektləşdirilməsi və kataloqlaşdırma sistemləri.

Orta əsrlər dövründə kitabxana mədəniyyəti. Şərq ölkələrində kitabxana işi: İslam İntibahı dövründə kitabxanaların çiçəklənməsi; Bağdadın "Beytül-hikmə" kitabxanası, Qahirə, Buxara və Cordoba kitabxanaları. Fondların sistemləşdirilməsi və xəttatlıq sənətinin rolu.

Erkən orta əsrlərdə Avropada kitabxana işi. Monastır və kilsə kitabxanaları. Universitetlərin yaranması (Bolonya, Paris, Oksford) və onların kitabxanalarının elmi-tədris prosesində rolu.

XIX əsrdə Avropada kitabxanaların inkişafı. Kitab çapının genişlənməsi və kitabxanaların kütləviləşməsi. Milli kitabxanaların formalaşması: Britaniya Muzeyinin Kitabxanası (indiki Britaniya Kitabxanası), Fransa Milli Kitabxanası və onların dünya kitabxanaçılıq elminə təsiri (A. Panizzi və b. fəaliyyəti).

XX əsrdə dünya kitabxanalarının inkişaf xarakteristikası. ABŞ-da kitabxana işi. ABŞ Konqres Kitabxanası dünyanın ən böyük informasiya mərkəzi kimi. Melvil Düi və Onluq Təsnifat sisteminin tətbiqi. İctimai kitabxanaların inkişaf modeli.

Avropa ölkələrində kitabxana şəbəkələrinin modernləşdirilməsi və qanunvericilik bazası.

Türkiyədə kitabxana işi. Osmanlı dövrü vəqf kitabxanalarından müasir Cümhuriyyət dövrü kitabxanalarına keçid. Türkiyə Milli Kitabxanasının və xalq kitabxanalarının fəaliyyəti.

Beynəlxalq kitabxana əməkdaşlığı. Dünya kitabxanalarının fəaliyyətinin əlaqələndirilməsində IFLA (Beynəlxalq Kitabxana Assosiasiyaları və İnstitutları Federasiyası) və UNESCO-nun rolu. İnformasiya cəmiyyətində qlobal kitabxana şəbəkələrinin inteqrasiyası.

### 4.4. Kitabxana menecmenti

Kitabxana menecmentinin fundamental əsasları. Kitabxana menecmentinin mahiyyəti, spesifik funksiyaları və idarəetmə prinsipləri. Kitabxana işinin hüquqi tənzimlənməsi və normativ-bazası. Kitabxana siyasətinin formalaşması və dövlətin bu sahədəki strateji prioritetləri.

Kitabxana texnologiyası və əməyin təşkili. Kitabxana-informasiya proseslərinin texnoloji zənciri. Kitabxanalarda əməyin elmi təşkili (EET) və normalaşdırılması. İş vaxtının uçotu və əmək səmərəliliyinin artırılması yolları. Kitabxananın təşkilati strukturu və idarəetmə aparatının quruluşu.

Uçot, hesabat və statistika. Kitabxana fəaliyyətində uçot və hesabat sisteminin müasir formaları. Kitabxana statistikası: kəmiyyət və keyfiyyət göstəricilərinin müəyyənləşdirilməsi. Statistik təhlilin elmi əsasları və kitabxana fəaliyyətinin proqnozlaşdırılmasında rolu.

Planlaşdırma və maliyyələşdirmə. Kitabxana işinin strateji və cari planlaşdırılması. Kitabxanaların maliyyə təminatı: dövlət büdcəsindən maliyyələşmə və büdcədənkənar (alternativ) maliyyə mənbələri. Kitabxana iqtisadiyyatının əsasları və ödənişli xidmətlərin təşkili.

Azərbaycan Respublikasında kitabxana işinin idarə olunması. Kitabxana işinə dövlət rəhbərliyi və nəzarət mexanizmləri. Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinin (MKS) təşkilati-hüquqi aspektləri və idarəetmə xüsusiyyətləri. Kitabxana şəbəkələrinin monitorinqi, yoxlanılması və təftişi qaydaları.

Metodiki təminat sistemi. Kitabxanaların fəaliyyətində metodiki rəhbərliyin rolu və funksiyaları. Elmi-metodiki mərkəzlərin strukturu və kitabxanalararası koordinasiya. İnnovasiyaların kitabxana praktikasında tətbiqi.

### 4.5. Kitabxana işinin iqtisadiyyatı və marketinqi

Kitabxana iqtisadiyyatının nəzəri-metodoloji əsasları. Kitabxana işinin iqtisadi təhlil metodları: kəmiyyət və keyfiyyət analizi, komparativ (müqayisəli) təhlil. Kitabxana işinin iqtisadi səmərəliliyi: anlayışın mahiyyəti, səmərəlilik meyarları və indikatorları. Kitabxana fəaliyyətinin sosial və iqtisadi effektlərinin vəhdəti.

Maliyyə menecmenti və göstəricilər sistemi. Kitabxanaların mühüm maliyyə göstəricilərinin müəyyənləşdirilməsi: büdcə təxsisatları, xərclər smetası və resursların bölüşdürülməsi. Kitabxana işinin maliyyələşmə modelləri (dövlət təminatı və özünümaliyyələşdirmə elementləri).

Kitabxana marketinqi. Kitabxana-informasiya xidmətləri bazarında marketinq strategiyasının formalaşması. İnformasiya tələbatının öyrənilməsi, seqmentləşdirmə və hədəf kütləsinin müəyyənləşdirilməsi. Kitabxananın müsbət imicinin (brendinqin) yaradılmasında marketinqin rolu.

Bazar iqtisadiyyatı və innovativ xidmətlər. Bazar münasibətləri şəraitində kitabxanaların təsərrüfat fəaliyyəti. Ödənişli (pullu) kitabxana-informasiya xidmətləri: yaradılmasının hüquqi və iqtisadi zərurəti. Pullu xidmətlərin tipologiyası: servis xidmətləri, xüsusi informasiya axtarışı, rəqəmsal xidmətlər və s.

Büdcədənkənar vəsaitlərin idarə edilməsi. Pullu xidmətlərdən və digər alternativ mənbələrdən (qrantlar, ianələr, sponsorluq) əldə edilən gəlirlərin uçotu. Bu vəsaitlərin kitabxananın maddi-texniki bazasının modernləşdirilməsi və əməkdaşların maddi stimullaşdırılmasına yönəldilməsinin səmərəli mexanizmləri.

### 4.6. Kitabxana xidməti və oxucu məmnunluğu

Kitabxana xidmətinin nəzəri-metodoloji əsasları. Kitabxana xidmətinin mahiyyəti, prinsipləri və sosial-mədəni funksiyaları. Kitabxana və şəxsiyyətin inkişafı: intellektual potensialın formalaşmasında kitabxananın rolu. Azərbaycanın görkəmli elm və mədəniyyət xadimlərinin irsində kitab, kitabxana və mütaliə mədəniyyəti məsələləri.

Mütaliənin sosiologiyası və psixologiyası. Mütaliənin ictimai məzmunu və sosial xarakteri. Mütaliə prosesinin pedaqoji və psixoloji əsasları: oxu fəaliyyətinin motivasiyası və qavranılması. Oxucu maraqlarının və mütaliə prosesinin öyrənilməsi metodologiyası. Oxucuların tipologiyası: sosial, peşə və yaş xüsusiyyətlərinə görə təsnifat.

Oxuculara kitabxana-informasiya xidmətinin təşkili. Kitabxana xidmətinin texnoloji dövrləri: müraciətdən informasiya təminatına qədər. Abonement və oxu zallarında xidmətin xüsusiyyətləri. Kitabxanalararası abonementin (KAA) və sənədlərin elektron çatdırılmasının əhəmiyyəti. Fərdi və qrup xidmətinin metodikası.

Kütləvi işlər və kommunikasiya. Kitabxanalarda kütləvi tədbirlərin müasir formaları və növləri: kitab təqdimatları, virtual sərgilər, konfranslar və ədəbi məclislər. Kitabxanaçı və oxucu münasibətlərində kommunikasiya psixologiyası. Kitabxana etikası: peşəkar davranış standartları və dəyərlər sistemi.

Xidmətin effektivliyi və keyfiyyət menecmenti. Kitabxana xidmətinin səmərəlilik göstəriciləri. Oxucu məmnunluğu keyfiyyət meyarı kimi: gözləntilərin və real tələbatın öyrənilməsi (anketləşdirmə, monitorinq). Müxtəlif növ sənədlər (çap, audiovizual, rəqəmsal) üzrə xidmətin diferensiallaşdırılması və fərdiləşdirilməsi.

### 4.7. Kitabxana resursları və və informasiya-axtarış sistemləri

Kitabxana resurslarının nəzəri-metodoloji əsasları. Kitabxana resursları anlayışının mahiyyəti və strukturu. Fondların formalaşmasının nəzəri problemləri: sistemlilik,

mütənasiblik və oxucu tələbatına uyğunluq. Kitabxana fondu resurslarının formalaşmasında texnoloji proseslərin avtomatlaşdırılması və rəqəmsal transformasiya.

Kitabxana fondunun komplektləşdirilməsi. Komplektləşdirmənin mənbələri, növləri və texnologiyası. Milli və xarici sənəd axını haqqında informasiya təminatı: biblioqrafik monitorinq və İnternet resurslarından istifadə. Pulsuz məcburi nüsxə sisteminin qanunvericilik əsasları. Beynəlxalq sənəd mübadiləsi (BSM) və Kitabxanalararası abonement (KAA).

Fondun uçotu, işlənməsi və mühafizəsi. Kitabxana fondunun uçotu: fərdi və qrup uçotu, onların standartlaşdırılması. Uçot prosesinin avtomatlaşdırılması. Sənədlərin texniki işlənməsi və fondda yerləşdirilməsi sistemləri. Kitabxana resurslarının mühafizəsi və təhlükəsizliyi: fiziki cəhətdən qorunma, konservasiya və bərpa (restavrasiya) texnologiyaları. Mühafizə prosesinin dövlət standartları (AZS, QOST) ilə tənzimlənməsi. Fondun yoxlanılması metodikası və nəticələrin təhlili.

Kitabxana fondunun idarə edilməsi. İdarəetmənin strukturu: planlaşdırma və proqnozlaşdırma. Fondun komplektləşdirilməsinin maliyyələşdirilməsi və iqtisadi səmərəliliyin təhlili. Maddi-texniki bazanın modernləşdirilməsi.

Kataloqlaşdırma və informasiya-axtarış sistemləri. Kitabxana kataloqları məlumat-axtarış sisteminin (MAS) nüvəsi kimi. Mərkəzləşdirilmiş kataloqlaşdırma və onun əhəmiyyəti. Azərbaycanda kataloqşünaslığın müasir vəziyyəti.

Kataloqların növləri və formaları: əlifba, sistemli və predmet kataloqları. Kataloqların funksiyaları və tərtibi metodikası.

Elektron kataloqların elmi-nəzəri əsasları, tərtibi metodikası və istifadəçi interfeysinin optimallaşdırılması.

Biblioqrafik təsvir və standartlaşdırma. Biblioqrafik təsvir nəzəriyyəsi: məqsəd və vəzifələri. Biblioqrafik təsvir sahəsində beynəlxalq (ISBD, MARC formatları) və milli standartların tətbiqi.

Təsvir obyektləri: Monoqrafik, çoxcildli, seriyalı və dövri nəşrlərin təsviri.

Analitik təsvir: Məqalə və tərkib hissələrinin analitik işlənmə xüsusiyyətləri.

Sənədlərin təsnifləşdirilməsi və təsnifat sistemləri. Kitabxana təsnifatı və elmlər təsnifatı arasındakı əlaqə. Dünya təsnifat sistemlərinin təkamülü: M.Düinin onluq təsnifatı, C.Ketter, H.Bliss, Ş.Ranqanatan və ABŞ Konqres Kitabxanasının təsnifat sistemləri.

Universal Onluq Təsnifatın (UOT) quruluşu, tərtibi prinsipləri və beynəlxalq statusu. Avtomatlaşdırılmış sistemlərdə UOT-dan istifadənin üstünlükləri.

Kitabxana-Biblioqrafiya Təsnifatının (KBT) yaradılması, elmi əsasları və tətbiqi.

Təsnifləşdirmə metodikası: ümumi və xüsusi metodika. Predmetləşdirmənin elmi-nəzəri əsasları və predmet kataloqu.

### 4.8. Kitabxana-informasiya texnologiyaları və rəqəmsallaşma

Kitabxanaların informasiyalaşdırılmasının nəzəri əsasları. Kitabxana işinin modernləşdirilməsində informasiya-kommunikasiya texnologiyalarının (İKT) rolu. Kitabxanaların mexanikləşdirilməsi və avtomatlaşdırılmasının tarixi təkamülü. Kitabxana tiplərinə (milli, elmi, kütləvi) uyğun informasiya texnologiyalarından istifadənin xüsusiyyətləri.

Kitabxanaların avtomatlaşdırılmasının proqram-texniki təminatı. Avtomatlaşdırmanın əsas prinsipləri: sistemlilik, açıqlıq və uyğunluq. Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemlərinin (AKİS): növləri, strukturu və funksional imkanları. Kompüter sistemlərinin və şəbəkə arxitekturasının tipləri.

Azərbaycan kitabxanalarında tətbiq edilən proqram təminatı. Yerli kitabxanalarda istifadə olunan AKİS-lər: "İRBİS", "ALİS", "VTLS" (VIRTUA) və digər proqram komplekslərinin xarakteristikası. Kitabxana proseslərində audiovizual və rabitə texnikasından istifadə. Operativ poliqrafiya və mikrofilmləşdirmə vasitələrinin müasir rolu.

Elektron və virtual kitabxanalar. Elektron kitabxanaların konsepsiyası, vəzifələri və yaradılma metodikası. Elektron nəşrlər: tipologiyası və kitabxana fondlarında yeri. Ənənəvi kitabxanadan rəqəmsal kitabxanaya keçid strategiyaları. Virtual kitabxana xidmətlərinin təşkili və distant istifadəçilərlə iş.

Şəbəkə texnologiyaları və korporativ əməkdaşlıq. Korporativ kitabxana-informasiya şəbəkələrinin yaradılması: prinsipləri və əhəmiyyəti. Bulud texnologiyaları (Cloud Computing) və kitabxana resurslarının inteqrasiyası. Kitabxanalararası resurs paylaşımı sistemləri. Kitabxana işində süni intellektdən istifadə olunması.

Elektron informasiya xidməti. Kitabxanalarda onlayn xidmətlərin təşkili: elektron kataloqlar, verilənlər bazaları (EBSCO, ProQuest və s.) və virtual sorğu xidmətləri. Veb-texnologiyaların (Veb 2.0, Veb 3.0) kitabxana xidmətinə tətbiqi. İnformasiya təhlükəsizliyi və müəllif hüquqlarının rəqəmsal mühitdə qorunması.

## 5. Kitabxanaşünaslığın müasir problemləri və inkişaf perspektivləri

İnformasiya cəmiyyəti və kitabxana paradiqması. İnformasiya cəmiyyəti şəraitində kitabxanaların sosial roluna dair müasir elmi konsepsiyalar. Kitabxananın "sosial yaddaş institutu"ndan "aktiv intellektual mərkəz"ə transformasiyası. Kitabxanaların rəqəmsal uçurumun aradan qaldırılmasında və informasiya savadlılığının artırılmasında rolu.

Qanunvericilik və hüquqi tənzimləmə. Kitabxana qanunvericiliyinin təkmilləşdirilməsi: rəqəmsal mühitdə müəllif hüquqları, açıq giriş və fərdi məlumatların qorunması məsələləri. "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun müasir dövrün tələbləri işığında təhlili.

Texnoloji transformasiya. Kitabxana işi və dördüncü sənaye inqilabı. Süni intellektin kitabxana xidmətlərinə tətbiqi problemləri. Kitabxanaların virtual məkanda mövcudluğu və kiber-təhlükəsizlik məsələləri.

Azərbaycan milli kitabxanaşünaslığının inkişaf istiqamətləri. Milli kitabxanaşünaslıq məktəbinin formalaşması və elmi prioritetləri. Azərbaycanın beynəlxalq kitabxana-informasiya əlaqələri: IFLA, UNESCO və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq. Dünya kitabxanaşünaslığına inteqrasiya və milli təcrübənin qlobal standartlara (UNIMARC, RDA və s.) uyğunlaşdırılması problemləri.

Elmi və təhsil mərkəzləri. Bakı Dövlət Universitetinin İnformasiya və sənəd menecmenti fakültəsi respublikada kitabxanaşünaslığın, biblioqrafiyaşünaslığın və kitabşünaslığın əsas elmi-tədris mərkəzi kimi. Kitabxanaçı kadrların hazırlanmasında yeni kurikulumlar və informasiya menecmenti yanaşması.

Gələcəyə baxış. Azərbaycan kitabxanaşünaslığının inkişaf perspektivləri: elmi tədqiqatların prioritet istiqamətləri, kitabxanaların dayanıqlı inkişaf məqsədlərinə töhfəsi və "Smart" kitabxana konsepsiyası.

## YOXLAMA SUALLARI

1. Ulu Öndər Heydər Əliyev və Azərbaycanda kitabxana işi
2. Müstəqillik illərində kitabxana işinin inkişaf istiqamətləri
3. Kitabxanaşünaslıq elmlər sistemində.
4. Kitabxanaşünaslığın strukturu.
5. Kitabxanaşünaslığın əsas kateqoriyaları.
6. Kitabxanaların sosial funksiyaları.
7. Azərbaycanda kitabxanaşünaslığın inkişaf mərhələləri.
8. Milli kitabxanaşünaslıq məktəbinin təşəkkülü, formalaşması və müasir vəziyyəti.
9. Müasir kitabxanaşünaslığın elmi-nəzəri problemləri.

10. Elektron və virtual kitabxanalarda rəqəmsal resursların yaradılması və idarə edilməsi metodikası.
11. Kitabxana menecmentinin mahiyyəti, funksiyaları, prinsipləri və milli qanunvericilik bazası.
12. Dünya ölkələrində kitabxana işinin təkamülü.
13. Azərbaycanda milli kitabxana-informasiya şəbəkələrində tətbiq olunan proqram təminatları (AKİS) və onların texnoloji imkanları.
14. Azərbaycanın elm və mədəniyyət xadimlərinin irsində kitabxana məsələləri.
15. Milli kitabxanaşünaslığın inkişaf perspektivləri və beynəlxalq əməkdaşlıq.

16. Kitabxana-informasiya resurslarının idarə olunmasının nəzəri və metodoloji əsasları

17.Kitabxana informasiya resurslarının yaradılması medotikası.

18.Kitabxana informasiya resurlarının təsnifləşdirilməsi.

19.Elektron və rəqəmsal kitabxana resursların idarə olunması problemləri.

20.Kitabxana fondunun təşkili və idarə olunması.

21.Sistemləşdirmə anlayışı və mərhələləri.

22.Kitabxana resurslarının təsnifatı və mövzu göstəriciləri.

23.İnformasiya resurslarının kitabxana menecmentinə inteqrasiya.

24.Rəqəmsal informasiya mühitində kitabxana resurslarının təsviri metodikası

25.Elektron kataloqda axtarış strategiyası.

26.Kitabxana resurslarının qorunması və uzunmüddətli saxlanması strategiyaları.

27.Resurs menecmentində statistik və analitik alətlərin tətbiqi.

28.Kitabxana resurslarının idarə olunmasında beynəlxalq standartlar.

29.Süni intellekt və avtomatlaşdırma texnologiyalarının resurs menecmentinə təsiri.

30.Müasir kitabxana modelində informasiya resurslarının idarə olunması.

## ƏDƏBİYYAT

**Azərbaycan dilində**

**A) Azərbaycan dilində**

1. Aslan, K. İ. (2005). Şəxsiyyətin formalaşmasında bədii ədəbiyyatın rolu (Azərbaycan kitabxanalarının materialları əsasında). Bakı: Bakı Universiteti Nəşriyyatı.
2. Aslan, K. İ. (2010). Dünya kitabxanalarının tarixi: Dərs vəsaiti. Bakı: Bakı Universiteti Nəşriyyatı.

3. Aslan, K. İ. (2011). Qədim və orta əsrlər dünya kitabxanaları: Dərs vəsaiti. Bakı: Bakı Universiteti Nəşriyyatı.
4. Aslan, K. İ. (2023). Oxu mədəniyyəti: Tədris-metodik vəsait. Bakı: Mihan Nəşriyyatı.
5. Əhmədov, E. Y. (1997). Kitabxanaşünaslığın tədqiqində fəlsəfi amillər. Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri təcrübi jurnal, 2, 50-55.
6. Əhmədov, E. Y. (2008). Dünya milli kitabxanaları (magistrantlar üçün dərs vəsaiti). Bakı.
7. Əhmədov, E. Y. (2012). Azərbaycanda kitabxana işinin hüquqi bazası. Bakı.
8. Əhmədov, E.Y. (2005). ABŞ və Rusiya kitabxanalarının iş təcrübəsində uşaq mütaliəsi məsələləri: Tədris-metodiki vəsait. Bakı.
9. Əhmədov, E.Y. (2019). Multikulturalizm kitabxana-informasiya fəaliyyətində: Monoqrafiya. Bakı: Elm.
10. Əliyeva, S.H. (2025). Kitabxana xidməti və oxucu məmnunluğu: Dərs vəsaiti. Bakı: Füyuzat.
11. Xələfov, A. A. (1998). Azərbaycanda ali kitabxanaçılıq təhsili. Bakı.
12. Xələfov, A. A. (2001). Kitabxanaşünaslığa giriş: Dərslik. H. I-II. Bakı.
13. Xələfov, A. A. (2003). Kitabxanaşünaslığa giriş: Dərslik. H. III: Kitabxana işi haqqında təlim. Bakı.
14. Xələfov, A. A. (2004). Azərbaycanda kitabxana işinin tarixi: Dərslik (Ən qədim dövrlərdən XX əsrə qədər). Bakı: BDU.
15. Xələfov, A. A. (2006). Heydər Əliyev və Azərbaycanda kitabxana işi. Bakı: Azərnəşr.
16. Xələfov, A. A. (2006). XXI əsrin əvvəllərində kitabxana işinin əsas inkişaf istiqamətləri (mülahizələr, təkliflər və proqnozlar). Bakı.
17. Xələfov, A. A. (2011). Kitabxana və cəmiyyət. Bakı.
18. Xələfov, A. A., & Qurbanov, A. İ. (2016). Kitabxanaların kompüterləşdirilməsinin əsasları (Dərslik). Bakı: BUN.
19. Xələfov, A.A. (2014). Kitabxanaşünaslığın tarixi və metodologiyası: Dərslik. Bakı: Bakı Universiteti Nəşriyyatı.
20. Xəlilov, M. S., Qurbanov, A. I., & Musayeva, N. N. (2001). Kitabxana informatikası: Dərs vəsaiti, 1-ci cild. Bakı: Odlar Yurdu.
21. Xəlilov, M. S., Qurbanov, A. I., & Musayeva, N. N. (2002). Kitabxana informatikası: Dərs vəsaiti, 2-ci cild. Bakı: Odlar Yurdu.
22. İsmayılov, X. (2000). Azərbaycanda kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi (1918-2000). Bakı.
23. İsmayılov, X. (2005). Kitabxana menecmentinin əsasları (Dərs vəsaiti). Bakı: BUN.
24. İsmayılova, N. N. (2002). Kitabxanaçılıq informatikası (Dərs vəsaiti, 2-ci cild). Bakı: Odlar Yurdu.
25. Kazımov, R. Ə. (2004). Kitabxana işinin iqtisadiyyatı: Dərs vəsaiti. Bakı: BDU.
26. Kitabxana işinə dair normativ aktlar: Qanun və qanun qüvvəli normativ hüquqlu sənədlər toplusu. (2001). Bakı: M. F. Axundzadə adına Azərbaycan Dövlət Kitabxanası.
27. Qurbanov, A.İ., Əliyev, A.Ə. (2023). Müasir informasiya-kommunikasiya texnologiyaları və informasiya təhlükəsizliyi: Dərs vəsaiti. Bakı: Füyuzat.
28. Qurbanov, A.İ., Kazimi, P.F., Quliyev, O.İ. (2018). Elektron kitabxanalar: Dərs vəsaiti. Bakı: MTM-İnnovation.
29. Qurbanov, A.İ., Kazimi, P.F., Məmmədov, M.Ə. (2012). Kitabxana-informasiya fəaliyyətinin marketinq və menecmenti: Dərs vəsaiti. Bakı: Mütərcim.
30. Rüstəmov, Ə. M. (1990). Respublika soraq-informasiya fondlarının avtomatlaşdırılması. Bakı.

31. Rüstəmov, Ə. M., & Dünyamalıyev, N. X. (1999). Kitabxana proseslərinin mexanikləşdirilməsi və avtomatlaşdırılmasının texniki vasitələri. Dərs vəsaiti. Bakı.
32. Rzayev, S. M. (2002). Oxuculara xidmət: Dərs vəsaiti. Bakı Universiteti Nəşriyyatı.
33. Rzayeva, Z. T. (2015). Respublika elmi kitabxanalarında informasiya axtarış sistemləri (1990--2005-ci illər). Bakı: Mütərcim.

**B) İngilis dilində**

1. Akhmedov, E. (2024). Philosophical Aspects of Library Studies. International Journal Of Innovative Research In Multidisciplinary Education. №8. P.1408-1411
2. Alpi, K., & Rosenberg, D. (2016). Health sciences libraries in the digital age. Chicago, IL: Medical Library Association.
3. Bawden, D., & Robinson, L. (2019). Introduction to information science (3rd ed.). London, UK: Facet Publishing.
4. Bell, S. J., & Shank, J. D. (2017). Academic librarianship today. Chicago, IL: American Library Association.
5. Borgman, C. L. (2015). Big data, little data, no data: Scholarship in the networked world. Cambridge, MA: MIT Press.
6. Buschman, J., & Leckie, G. J. (2019). The library as place: History, community, and culture. Lanham, MD: Rowman & Littlefield.
7. Evans, G. E., & Saponaro, M. Z. (2019). Foundations of library and information science (4th ed.). Santa Barbara, CA: Libraries Unlimited.
8. Lancaster, F. W. (2017). Indexing and abstracting in theory and practice (3rd ed.). Bingley, UK: Emerald Group Publishing.
9. Lankes, R. D. (2016). The atlas of new librarianship. Cambridge, MA: MIT Press.
10. Mammadov, E.E. (2022). History of books and libraries in Azerbaijan: Teaching Aid. Baku: Adiloglu.
11. Rowley, J., & Hartley, R. (2017). Organizing knowledge: An introduction to managing access to information (4th ed.). London, UK: Routledge.
12. Saracevic, T. (2016). Information science: Origins, evolution, and trends. New York, NY: Springer.
13. Schonfeld, R. C., & Housewright, R. (2017). Supporting the scholarly work of faculty: Research library contributions. Washington, DC: Association of Research Libraries.
14. Smith, A. M., & Mayer, R. (2020). Artificial intelligence in libraries: Emerging technologies and trends. Berlin, Germany: De Gruyter Saur.
15. Tenopir, C., & King, D. W. (2019). Scholarly communication and publishing: Issues, challenges, and strategies. Oxford, UK: Chandos Publishing.
16. Tenopir, C., & Volentine, R. (2018). Data and information management in libraries. London, UK: Facet Publishing.
17. Wiegand, W. A., & Davis, D. G. (2015). Encyclopedia of library history. New York, NY: Routledge.

## BİBLİOQRAFİYAŞÜNASLIQ

### 5. Biblioqrafiyaşünaslıq elm kimi
### 5.1. Biblioqrafiyaşünaslığın strukturu, predmeti, metodologiyası

Biblioqrafiyaşünaslığın daxili strukturu. Biblioqrafiyaşünaslığın strukturlaşmasında "aspekt" və "obyekt" prinsipləri, onların qarşılıqlı dialektik əlaqəsi. Ümumi və xüsusi (sahəvi) biblioqrafiyaşünaslıq anlayışlarının mahiyyəti. Ümumi biblioqrafiyaşünaslıq biblioqrafik fəaliyyətin qanunauyğunluqlarını öyrənən fundamental sahə kimi.

Biblioqrafiyaşünaslığın obyekti və predmeti. Biblioqrafik fəaliyyət (biblioqrafik informasiyanın yaradılması, ötürülməsi və istifadəsi prosesi) biblioqrafiyaşünaslığın predmeti kimi. Biblioqrafiyaşünaslığın elmi tərifi və sosial-kommunikativ mahiyyəti. Ümumi biblioqrafiyaşünaslığın struktur bölmələri: Biblioqrafik fəaliyyətin nəzəriyyəsi və metodologiyası; Biblioqrafiya tarixi; Biblioqrafiya işinin təşkili, idarə olunması və texnologiyası. Bu bölmələrin predmet və məzmun baxımından elmi xarakteristikası. Tədqiqat obyektinə görə fərqlənən sahəvi biblioqrafiyaşünaslıq fənlərinin səciyyəvi xüsusiyyətləri.

Biblioqrafiyaşünaslığın metodologiyası. "Biblioqrafik metod" anlayışı, onun xüsusi və ümumi-elmi mahiyyəti. Biblioqrafiyaşünaslıqda tətbiq olunan ümumi-elmi metodlar: analiz, sintez, induksiya, deduksiya, riyazi-statistik və sosioloji metodlar. Müasir biblioqrafiyaşünaslıqda sistemli yanaşma prinsipi və biblioqrafik fəaliyyətin vahid sistem kimi tədqiqi.

Azərbaycanda biblioqrafiyaşünaslıq elminin təşkili. Milli biblioqrafiyaşünaslıqda elmi-tədqiqat fəaliyyətinin prioritet istiqamətləri. Bakı Dövlət Universitetinin İnformasiya və sənəd menecmenti fakültəsi biblioqrafiyaşünaslığın inkişafında və elmi kadr hazırlığında aparıcı mərkəz kimi. Biblioqrafiyaşünaslığın elmi bir sahə və tədris fənni kimi qarşılıqlı əlaqəsi, nəzəriyyə ilə təcrübənin vəhdəti.

### 1.2. Biblioqrafiyaşünaslığın əsas mərhələləri

Biblioqrafik elmi fikrin təşəkkülü. Biblioqrafik fəaliyyətin intellektual dərki və ilk elmi mülahizələrin meydana gəlməsi. Ümumdünya biblioqrafik təcrübənin tarixi inkişaf qanunauyğunluqları. Biblioqrafik təcrübənin ilkin dövrlərdə dərketmə, öyrənmə və elmi ümumiləşdirmə subyekti kimi xarakteristikası.

Klassik biblioqrafiyaşünaslıq məktəbləri (XVIII-XIX əsrlər). Biblioqrafik elmin inkişafında kitabşünaslıq (universal) mövqeyində duran Avropa və Rusiya nümayəndələri: M. Denis, J. Nedelya Roşel, Q. Qrequar, A. Kamyu, Q. Peno, F. Ebert, V. Anastasyeviç, N. Lisovski və başqaları. Onların biblioqrafiyanın mahiyyəti, sənədlərin təsviri və sistemləşdirilməsi haqqında nəzəri görüşlərinin ümumi şərhi.

Müasir biblioqrafiyaşünaslıq nəzəriyyəsinin formalaşması. Postsovet məkanında biblioqrafik elmi fikrin inkişafında yeni mərhələ: O. Korşunov (biblioqrafik informasiyanın sənəd-kommunikativ konsepsiyası) və A. Barsuk (biblioqrafiyanın kitabşünaslıq konsepsiyası). Bu nəzəriyyələrin biblioqrafiyaşünaslığın metodoloji bazasının möhkəmləndirilməsində rolu.

Azərbaycanda biblioqrafiyaşünaslıq elminin inkişafı. Milli biblioqrafik elmi fikrin formalaşması. Azərbaycan biblioqrafiyaşünaslığının görkəmli tədqiqatçıları: Ə.Qəhrəmanov, A.Xələfov, Z.Əliyev, R.Kazımov və başqalarının elmi irsi.

Müasir mərhələ və perspektivlər. Müasir Azərbaycan biblioqrafiyaşünas alimlərinin (N. İsmayılov və b.) fəaliyyəti. Onların biblioqrafiyaşünaslıq, sənəd menecmenti və informasiya kommunikasiyası sahəsində elmi-tədqiqatlarının əsas istiqamətləri. Rəqəmsal mühitdə biblioqrafik informasiyanın transformasiyası problemlərinin tədqiqi.

### 1.3. Biblioqrafiyaşünaslıq müasir mərhələdə

Müasir biblioqrafiyaşünaslığın konseptual əsasları. Müasir mərhələdə biblioqrafiyaşünaslıq elminə dair konseptual yanaşmaların təsnifatı: kitabşünaslıq, sənədşünaslıq və informasioloji mövqelər. Bu yanaşmaları fərqləndirən əsas metodoloji cəhətlər və onların vəhdəti. Biblioqrafiyaşünaslıqda sənəd menecmenti və informasiya-analitik fəaliyyət aspektlərinin güclənməsi.

Biblioqrafiya və epistemologiya. Biblioqrafik informasiyanın idrak prosesindəki (epistemoloji) rolu. Biliklərin sistemləşdirilməsi və ötürülməsində biblioqrafiyanın fəlsəfi-metodoloji əhəmiyyəti.

Biblioqrafiyaşünaslıq tədqiqatlarının vəziyyəti və perspektivləri. Müasir biblioqrafiyaşünaslıq sahəsində elmi-tədqiqat işlərinin mövcud mənzərəsi. Biblioqrafiyanın inteqrasiyalı ümumi nəzəriyyəsinin yaradılması zərurəti və bu problemin həlli istiqamətləri. Rəqəmsal mühitdə biblioqrafik fəaliyyətin transformasiyasına dair müasir konsepsiyaların təhlili.

Müasir biblioqrafik konsepsiyaların şərhi. Qlobal informasiya cəmiyyətində biblioqrafiyanın statusu: sosial-kommunikativ, kulturoloji və texnoloji yanaşmaların müqayisəli təhlili. Biblioqrafiyaşünaslığın gələcək inkişaf vektorları və elmi proqnozlaşdırma.

### 1.4. Biblioqrafiyaşünaslıq yaxın elmi fənlər sistemində

Biblioqrafiyaşünaslığın humanist aspektləri. Biblioqrafiyaşünaslığın psixoloji-pedaqoji aspektləri: biblioqrafik informasiyanın mənimsənilməsi prosesində oxucu psixologiyası və biblioqrafik savadlılığın artırılmasında biblioqrafik pedaqogikanın rolu.

Biblioqrafiyaşünaslıq və kitabxanaşünaslıq. Kitabşünaslıq və sənədşünaslıqla qarşılıqlı münasibətlər. Biblioqrafiyaşünaslıq və kitabşünaslıq. Biblioqrafiyaşünaslıq və sənədşünaslıq. Bu sahələrin qarşılıqlı əlaqəsinə dair müasir elmi yanaşmalarda mövcud olan konseptual müxtəliflik və mübahisəli məqamların təhlili.

Biblioqrafiyaşünaslıq və informasiya texnologiyaları. Biblioqrafiyaşünaslığın texnoloji strukturunda informasiya (elektron, kompüter) problematikasının yeri. Elektron biblioqrafiya və rəqəmsal biblioqrafik resursların formalaşması perspektivləri. Biblioqrafik proseslərin avtomatlaşdırılması və süni intellekt texnologiyalarının biblioqrafik axtarış sistemlərinə tətbiqi.

## 2.Biblioqrafik informasiyanın nəzəri əsasları.

### 2.1. Sənəd kommunikasiyalan sistemi biblioqrafik informasiya fəaliyyətinin əsas mühiti kimi

Sənəd kommunikasiyaları sisteminin əsas anlayışlarının biblioqrafik şərhi: informasiya, sənəd, informasiya istifadəçisi (tələbatçısı), sənəd kommunikasiyaları sisteminin ümumi tərifi.

Biblioqrafik informasiya sənəd kommunikasiyaları sisteminin əsas tarixi inkişaf (əlyazma, poliqrafik, elektron) mərhələlərində. Sənəd biblioqrafiyalaşdırmanın obyekti kimi.

### 2.2. Biblioqrafik informasiya ilkin biblioqrafik anlayış kimi

Biblioqrafiyanın bir sistem kimi nəzəri mənimsənilməsinin metodoloji problemləri.

“Sənəd-tələbatçı” (s-t) münasibətinin biblioqrafik informasiyanın başvermə mənbəyi (çıxış nöqtəsi) kimi məntiqi şərhi. Sənəd və istifadəçi arasında uyğunluq anlayışı. Sənədlə istifadəçi arasındakı uyğunluğun həyata keçirilməsini çətinləşdirən informasiya maneələrinin ümumi şərhi.

Biblioqrafiya nəzəriyyəsinin əsas anlayışı olan biblioqrafik fəaliyyətin cəmiyyətdə spesifik funksiyaların yerinə yetirməsinə kömək edən informasiya haqqında ümumi təsəvvür.

### 2.3. Biblioqrafik informasiyanın mövcudluq formaları

Biblioqrafik çatdırma biblioqrafik informasiyanın ünsürüdür. Biblioqrafik çatdırmanın şifahi və sənəddə qeydə alınmış formaları. Biblioqrafik əlamət biblioqrafik çatdırmanın yaradılmasının mühüm materialıdır.

Biblioqrafik təsvir - sənədlərdə qeydə alınmış biblioqrafik çatdırmanın (yazının) məlumatın minimum vacib formasıdır.

Biblioqrafik yazı biblioqrafik vəsaitin əsas ünsürüdür.

Biblioqrafik vəsait biblioqrafik informasiyanın əməli istifadəsinin əsas ünsürüdür (vasitəsidir). Biblioqrafik vəsaitin avtomatlaşdırılmış o cümlədən sənədşünaslıq məlumat axtarış sistemləri (MAS): biblioqrafik məlumat bazaları və bankları da daxil olmaqla forma müxtəlifliyi.

Biblioqrafik məhsul - sənədlərdə qeydə alınmış biblioqrafik informasiyanın bütün formalarının daha ümumi məcmusunu ifadə edən anlayış kimi.

### 2.4. Biblioqrafik informasiyanın əsas ictimai funksiyaları

Biblioqrafik informasiyanm ikimeyililik anlayışı. Onun əsaslı nəzəri mahiyyəti.

Sənəd biblioqrafik fəaliyyətin (ikimeyililiyin bir tərəfi) əsl maddi əsası kimi, informasiya istifadəçisi (iki ikimeyililiyin digər tərəfi) biblioqrafik fəaliyyətin son məqsədinin və funksional mahiyyətinin, onun funksional mahiyyətinə görə sosial istiqamətin əsası kimi

Biblioqrafik informasiya tələbatlarının insan təlabatının ümumi quruluşunda yeri. Biblioqrafik tələbatların baş verməsi və formalaşması.

Biblioqrafik informasiyanın əsas ictimai funksiyalarının (axtarış, kommunikativ, dəyərləndirmə) ümumi, xüsusi və fərdi adlanan fəlsəfi kateqoriyaların tətbiqi ilə müəyyənləşdirilməsi.

Biblioqrafik informasiyanm ilkin funksional-mahiyyət quruluşu (genetik və məntiqi). Biblioqrafik informasiyanın ümumi tərifi.

Biblioqrafik informasiyanın keyfiyyət (səciyyə) problemi. Biblioqrafik informasiya biblioqrafik olmayan informasiyanm fərq-ləndirilməsində əsas prinsipidir (amildir).

## 3. Biblioqrafik fəaliyyət biblioqrafiyaşünaslığın mərkəzi kateqoriyası kimi

### 3.1. Biblioqrafik fəaliyyətin baş verməsi, tarixi təkamülü

Qədim Şumer kitabxanalarında biblioqrafik əməyin tarixi formalarının meydana gəlməsi. Bir çox görkəmli qədim dünya şəxsiyyətləri (Kallimax, Siseron və b.) biblioqrafik fəaliyyətin peşəkar olmayan təsadüfi xarakter daşıyan ilk məhşur subyektləri kimi. Kitabxana işçiləri, kitab naşirləri və kitab ticarətçilərinin biblioqrafik fəaliyyətin inkişafinda rolu.

Təzkirəçilər A. Bakıxanov, A. Baqri, Ə. Qəhrəmanov, Ə. Əliyev, Ə. Xələfov və başqaları biblioqrafik fəaliyyətin məşhur subyektləri kimi. M. B. Məhəmmədzadə, M. E. Əfəndiyev, N. Axundov, H. Babayev və başqalarının biblioqrafik fəaliyyətin inkişafinda xidmətləri.

Dünyada və Azərbaycanda biblioqrafik fəaliyyət sahəsində peşəkarlıq prosesinin və əmək bölgüsünün baş verməsi.

### 3.2. Biblioqrafik fəaliyyətin müasir quruluşu

Biblioqrafiyada əmək bölgüsünün lazımi səviyyədə qiymətləndirilməsi. Biblioqrafik fəaliyyətin əsas quruluş tərkibi: bilavasitə (əməli) biblioqrafik fəaliyyət (biblioqrafiyalaşdırma və biblioqrafik xidmət); fəaliyyətin törəmə (müşaiətedici, yardımçı) növləri elmi-tədqiqat, idarəetmə, kadr hazırlığı (biblioqrafiyanın infrastrukturu).

### 3.3. Biblioqrafik fəaliyyətin prinsipləri

Biblioqrafik fəaliyyətə tətbiq olunan "prinsip" anlayışları. Biblioqrafik fəaliyyətin prinsiplərinin təsnifləşdirilməsi.

Ümumi və xüsusi, daxili (özünəməxsus) və zahiri, formal (kəmiyyət) və məzmunca keyfiyyət prinsipləri.

Keyfiyyətə görə seçmə prinsipi və onun biblioqrafik informasiyanın əsas dəyərləndirmə funksiyasının əməli olaraq həyata keçirilməsi vasitəsi kimi növ müxtəlifliyi.

## 4. Biblioqrafiya sənəd-informasiya fəaliyyətinin bir sahəsi kimi

### 4.1. Biblioqrafiyanın ümumi tərifi problemi

Problemin tarixi. Biblioqrafik texnologiyaya aid standartlarda biblioqrafiyaya verilən təriflər. Onların müqayisəli şərhi.

Biblioqrafiyaya verilən təriflərin ən yaxm anlayış (metasistem) problemi. "Biblioqrafiya" anlayışının çoxmənalılığı. "Biblioqrafiya" və "Biblioqrafik fəaliyyət" anlayışlarının qarşılıqlı əlaqəsi, sinonimliyi.

Biblioqrafiyaya fəaliyyət sistemi mövqeyindən yanaşmaqla verilən ümumi tərif. Daxili differensasiyasına görə vəhdətdə götürülən obyekt hesab edilən biblioqrafiya haqqında müxtəlif təsəvvürlər.

Biblioqrafiyanın bütövlükdə daxili diferensiasiyasının iki əsas üsulu: hissələrə bölünməsi (komponent quruluşu) və növlərə ayrılması (növ quruluşu).

### 4.2. Biblioqrafiyanın fəaliyyət sahəsi kimi komponent quruluşu

Biblioqrafiyanın komponenet quruluşunun ümumi metodoloji izahı. Komponent quruluşunun tərkib hissələri.

Subyektlər komponenet quruluşunda sistemyaradıcı ünsürdür. Peşəkar biblioqraf - biblioqrafik subyektlər sırasında mərkəzi fiqur kimi. Onun peşə keyfiyyəti, biliyi, bacarığı, səriştəsi. Biblioqrafiya ilə peşə əlaqəsi olan başqa subyektlər. Biblioqrafik informasiya istifadəçiləri biblioqrafik fəaliyyətin subyekti kimi.

Biblioqrafik fəaliyyətin obyektləri. Sənəd biblioqrafiyalaşdırma prosesinin bilavasitə və biblioqrafik xidmətin bilvasitə (biblioqrafik informasiya vasitəsilə) obyektidir. İnformasiya istifadəçisi - biblioqrafiyalaşdırmanın əsas etibarilə potensial və biblioqrafik xidmətin bilavasitə obyektidir. "Sənəd-tələbatçı (istifadəçi)" onların arasında əlaqə biblioqrafik fəaliyyətin əsil vahid obyekti kimi.

Biblioqrafik fəaliyyətin posesləri, onların sistem halında ümumi səciyyələndirilməsi.

Biblioqrafik axtarış biblioqrafik fəaliyyətin texnoloji əsası kimi, onun həyata keçirilməsi prosesləri.

Sənədlərin biblioqrafiyalaşdırılması. Bu prosesin quruluşca geniş şərhi: Əsas mərhələlər və əməliyyatlar (üsullar). Prosesin ümumi məntiqi quruluşu.

Biblioqrafik xidmət. Soraq-biblioqraifiya və biblioqrafik informasiya vermən xidmətinin quruluşca səciyyələndirilməsi.

Biblioqrafik fəaliyyətin vasitələri və nəticələri. Texniki və metodiki vasitələr. Biblioqrafik fəaliyyətin son və aralıq nəticələri. Biblioqrafik məhsul biblioqrafik fəaliyyətin əsas nəticəsi və əsas vasitəsidir. Onun növ təsnifatının elmi və əməli əhəmiyyəti.

**4.3. Biblioqrafiyanın növ təsnifatı elmi problem kimi**

Məsələnin tarixi. Problemin metodoloji cəhətdən əsaslandırılması. Biblioqrafiyanın növ təsnifatma dair əsas variantlar. Onların müqayisəli tənqidi şərhi.

Biblioqrafiyanın vahid bir sistem kimi növ təsnifatının iki üsulu; əvvəla, biblioqrafiyanın bir sosial institut kimi təşkilati formalaşmasını (mənsubiyyəti) nəzərə alınmaqla; ikincisi, yaradılan biblioqrafik məhsulun həmcinsliliyi əsasında.

Biblioqrafiyanın birinci üsula görə alınan alt bölmələri: Kitabxana biblioqrafiyası, redaksiya-nəşriyyat biblioqrafiyası, kitab ticarəti biblioqrafiyası, arxiv biblioqrafiyası, muzey biblioqrafiyası və b. Onların ümumi səciyyəsi.

Biblioqrafiyanın ikinci üsulla alınan növ təsnifatının əsaslandığı əlamətlər problemi.

Biblioqrafik məhsulun ictimai (sosial) istiqaməti növ təsnifatının əsas, daha mühüm əlamətidir. Bu əlamətə görə biblioqrafiyanın növ təsnifatı, onun əhəmiyyəti. Ümumi və xüsusi biblioqrafiya anlayışları. Onların quruluşca nəzəri şərhi.

Biblioqrafiyanın təsnifləşdirilməsində əsaslanılan başqa əlamətlər.

**4.4. Müasir mərhələdə biblioqrafik elmin və təcrübənin əsas inkişaf ənənələri**

Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi, ölkənin sosial-iqtisadi həyatında baş verən köklü dəyişikliklər və onun biblioqrafik elmin və təcrübənin məzmununa təsiri. Azərbaycan biblioqrafiyasının milli-mənəvi və ümumbəşəri dəyərlərə əsaslanmasının vacibliyi.

Diferensiasiya və inteqrasiya ənənələri və onun biblioqrafiyanın təşkilati quruluşuna təsiri. Cəmiyyətin elmi-texniki, sosial-iqtisadi inkişafinın kompleks proqramları və onların kompleks, sahələrarası biblioqrafik informasiya təminatına diqqətin artırılması. Biblioqrafik fəaliyyətin cəmiyyətin informasiya təminatının vahid sistemi çərçivəsində təşkilati və funksional inteqrasiyasını təmin edən vəzifələr və vasitələr.

Biblioqrafik proseslərin avtomatlaşdırılması (kompüterləşdirilməsi) əməli biblioqrafik fəaliyyətin effektivliyinin və keyfiyyətinin artırılmasının vacib şərti və vasitəsi kimi. Cəmiyyətin qlobal informasiyalaşdırılmasında biblioqrafiyanın yeri, əhəmiyyəti və imkanları biblioqrafiyaşünaslığın texnologiya bölməsinin mühüm problemidir. Biblioqrafik fəaliyyətin əsas istiqamətlərinin və sahələrinin elmi əsaslarının təkmilləşdirilməsi müasir Azərbaycan biblioqrafiyaşünaslığının başlıca məqsədi kimi.

Biblioqrafik vəsaitlər sisteminin formalaşması proseslərinin intensivləşdirilməsi vəzifələri. Biblioqrafiyada tərtibçilik fəaliyyətinin təkmilləşdirilməsi. Elektron biblioqrafik fəaliyyət. Biblioqrafik fəaliyyətdə süni intellektdən istifadə.

Biblioqrafiya elmlə və təcrübənin əlaqəsinin daha da möhkəmləndirilməsi vasitələri, elmi-tədqiqatların nəticələrinin tətbiqi sisteminin yaradılması, elmi-tədqiqat işlərinin yeni təşkili formalarından istifadə olunması.

**YOXLAMA SUALLARI**

1. Sənəd-kommunikasiya sistemi biblioqrafik informasiyanın fəaliyyət mühiti kimi.
2. Sənəd biblioqrafiyalaşdırmanın obyektidir.
3. Biblioqrafik informasiya ilkin biblioqrafik anlayış kimi.
4. Biblioqrafik informasiyanm mövcudluq formaları.

5. Sənəd kommunikasiyaları sistemində biblioqrafiyaşünaslıq üçün əhəmiyyətli olan anlayışlar.
6. Biblioqrafik informasiyanm əsas sosial funksiyaları.
7. Biblioqrafik fəaliyyət biblioqrafiyaşünaslığın mərkəzi kateqoriyası kimi.
8. Biblioqrafiyanın ümumi tərifi problemi
9. Biblioqrafiyanın fəaliyyətin sahəsi kimi komponent quruluşu.
10. Cəmiyyətin qlobal informasiyalaşdırılmasında biblioqrafiyanın yeri və əhəmiyyəti.
11. Biblioqrafiyanın növ təsnifatı elmi problem kimi.
12. Biblioqrafiyanın təşkilati növ quruluşu.
13. Biblioqrafiyanın sosial istiqamətinə və başqa əlamətlərə görə növ təsnifatı.
14. Müasir mərhələdə biblioqrafik elmin və təcrübənin əsas inkişaf ənənələri.
15. Elektron biblioqrafiya

## ƏDƏBİYYAT
### Azərbaycan dilində


1. Allahverdiyev, B. V. (1978). Elmi-texniki tərəqqi və biblioqrafiya. *Elmi əsərlər. Kitabxanaşünaslıq və biblioqrafiya seriyası*, (1), 3-8.
2. Bayramov, F. A. (1985). Azərbaycan maarifçiləri və biblioqrafiya. *Kitablar aləmində*, (2), 13-14.
3. Bayramov, F. A. (1971). A. Bakıxanovun biblioqrafik fəaliyyəti. *Elmi əsərlər: Kitabxanaşünaslıq və biblioqrafiya seriyası*, 92, 58-61.
4. Bayramov, F. A. (2000). Baqri və Azərbaycan iqtisadiyyatının biblioqrafiyası. *Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal*, 91, 100-105.
5. Bayramov, F. A. (1999). XX əsr Azərbaycan alimləri və biblioqrafiya. *Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal*, (1), 89-94.
6. Bayramov, F. A. S. (1977). S. Mümtazın biblioqrafik fəaliyyəti. *Elmi əsərlər: Kitabxanaşünaslıq və biblioqrafiya seriyası*, (1), 59-65.
7. Əliyev, Z. H. (2001). *Ümumi biblioqrafiyaşünaslıq*. Bakı: Bakı Universiteti Nəşriyyatı.
8. Əliyev, Z. H. (2007). *Azərbaycan biblioqrafiyasının tarixi*. Bakı.
9. Əliyev, Z. H. (2006). *Ümumi biblioqrafiyaşünaslıq*. Bakı.
10. Əliyev, Z. H. (1998). Biblioqrafik informasiya və onun elmi mahiyyəti. *Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal*, (1), 17-25.
11. Əliyev, Z. H. (2004). Biblioqrafik informasiya sənəd informasiya tələbatının ödənilməsində mühüm vasitədir. *Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal*, (4), 82-92.
12. Əliyev, Z. H. (1994). Azərbaycanda elmi-köməkçi biblioqrafiya müasir mərhələdə. *Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası*, (1), 120-127.
13. Əliyev, Z. H. (1998). Biblioqrafik informasiya və onun elmi mahiyyəti. *Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal*, (1), 17-25.
14. Əliyev, Z. H. (2004). Biblioqrafik informasiya sənəd informasiya tələbatının ödənilməsində mühüm vasitədir. *Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal*, (1), 82-92.
15. Əliyev, Z. H. (2005). Biblioqrafik vasitələr sənəd axını və kütləsini inteqral şəkildə əks etdirən biblioqrafik informasiya mənbələridir. *Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal*, (2), 97-109.
16. Əliyev, Z. H. (2000). 1920-ci illərdə Azərbaycanda ümumi biblioqrafiya. *Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal*, (2), 80-91.
17. Əliyev, Z. H. (2002). 1920-1930-cu illərdə Azərbaycanda xüsusi biblioqrafiya. *Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal*, (2), 79-88.
18. Əliyev, Z. H., & Məmmədov, Ə. M. (1998). Biblioqrafik işin kompüterləşdirilməsinin nəzəri və praktiki əhəmiyyəti. *Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal*, (2), 63-69.
19. Xələfov, Ə. T. (1999). XX əsr təzkirəçiləri haqqında. *Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal*, (2), 106-118.
20. Xələfov, Ə. T. (1998). XIX əsr Azərbaycan maarifpərvər və alimlərinin biblioqrafik fəaliyyəti haqqında. *Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal*, (2), 70-81.
21. Xələfov, Ə. T. (1998). XVII-XVIII əsrlərdə Azərbaycan ədəbi biblioqrafik qaynaqları haqqında. *Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal*, (1), 25-32.
22. Xələfov, Ə. T. (1997). Orta əsrlər Azərbaycan ədəbi biblioqrafiyasına dair. *Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal*, (1), 82-93.

23. İsmayılov, N. İ. (1999). Azərbaycanda kitabxana-biblioqrafiya ehtiyatlarının yerləşməsi və istifadəsinin bəzi məsələləri. *Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal*, (1), 94-100.
24. İsmayılov, N. İ. (1998). Azərbaycanda kitabxana-biblioqrafiya ehtiyatı: vəziyyəti, problemləri, perspektivləri. *Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal*, (2), 81-89.
25. İsmayılov, N. İ. (2000). Milli biblioqrafiya biblioqrafik resursun tərkib hissəsi kimi. *Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal*, (2), 94-103.
26. İsmayılov, N. İ. (2003). *Azərbaycan biblioqrafiyasının biblioqrafiyası: biblioqrafik vəsaitlərin göstəricisi*. Bakı: Mütərcim.
27. İsmayılov, N. İ. (1998). Azərbaycanın kitabxana-biblioqrafiya ehtiyatı: vəziyyəti, problemləri, perspektivləri. *Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal*, (2), 81-89.
28. İsmayılov, N. İ., & Hacıyeva, Q. S. (2004). *Kitabxanada ölkəşünaslıq (diyarşünaslıq) üzrə biblioqrafik fəaliyyət (nəzəri, tarixi, təşkilati məsələlər)*. Bakı: Mütərcim.
29. İsmayılov, N. İ., & Vəzirova, R. Ə. (2004). *Biblioqrafik tərtibatın metodikası*. Bakı: Mütərcim.
30. Ağayeva, X. T. (2018). *Pedaqogika üzrə ədəbiyyatın biblioqrafiyası* (Dərs vəsaiti). Bakı: Bakı Universiteti Nəşriyyatı.
31. İsmayılov, N. İ., & Ağayeva, X. T. (2018). *Kitabxanalarda biblioqrafik işin təşkili və metodikası* (Dərs vəsaiti). Bakı: Bakı Universiteti Nəşriyyatı.
32. İsmayılov, N. İ., & Xudiyeva, V. H. (2022). *Rəqəmsal bilik və tədqiqat bacarıqları* (Dərs vəsaiti). Bakı: Füyuzat.
33. İsmayılov, N. İ., & Rzayeva, Z. (2021). *Azərbaycanda kitabxanaçılıq-biblioqrafiya sahəsində sənəd axınının təşəkkülü, inkişafı və müasir vəziyyəti* (Monoqrafiya). Bakı: Mütərcim.
34. İsmayılov, N. İ., Məmmədov, M., & Ağayeva, X. T. (2025). *Sənədşünaslıq* (Dərs vəsaiti). Bakı: BDU Nəşr evi.
35. İsmayılova, S. P. (2021). *Sahəvi biblioqrafiya* (Dərs vəsaiti). Bakı: Azəri poliqrafiya.
36. Sadıqova, S. A. (2021). *Azərbaycan milli biblioqrafiyası qlobal informasiya məkanında* (Monoqrafiya). Bakı: ADPU nəşriyyatı.

**B) İngilis dilində**

1. Otlet, P. (1934). *International Bibliography of Social and Cultural Sciences*. Brussels: Mundaneum Press.
2. Lancaster, F. W. (2003). *Indexing and Abstracting in Theory and Practice*. London: Facet Publishing.
3. Svenonius, E. (2000). *The Intellectual Foundation of Information Organization*. Cambridge, MA: MIT Press.
4. Hjørland, B. (2013). *Foundations of Bibliography and Information Science*. Berlin: De Gruyter.
5. Rowley, J., & Hartley, R. (2008). *Organizing Knowledge: An Introduction to Managing Access to Information*. London: Ashgate.

## KİTABŞÜNASLIQ

### 1. Kitabşünaslığın tarixşünaslığı

"Kitabşünaslıq" termininin elmi dövriyyəyə daxil olması və sinonim anlayışlar. XVIII-XIX əsrlərdə bibliologiya və biblioqrafiya problemləri (məsələn, İ. Frank, Q. Debür, M. Denis, Q. Peno və b.).

XIX əsrdə və XX əsrin I yarısında kitabşünaslığın elmi izahları. V. Anastaseviç, K. Estreyxer və başqalarının nəzəriyyələri. Kitabşünaslığın kitabxanaşünaslıq kontekstində şərhi.

Rusiyada nəzəri kitabşünaslığın inkişafı: N. Lisovski, A. Lovyagin, M. Kufayev, N. Rubakin, M. Şelkunov, N. Somov, A. Fomin və digərlərinin elmi töhfələri. 1920-1930-cu illərdə bibliopsixologiya (N.A. Rubakin), kitab fəlsəfəsi (M. Kufayev) və s. 1930-1950-ci illərdə SSRİ-də kitabşünaslıq sahəsinə qarşı mənfi münasibətin tarixi.

XX əsrin II yarısında kitabşünaslıq tədqiqatlarının istiqamətləri. Kitab və kitab işi barədə kompleks elm kimi yanaşmalar (A. Sidorov, N. Sikorski, A. İoffe və b.). Azərbaycan alimlərinin (Ə. Mirəhmədov, B. Allahverdiyev və b.) rolunun qiymətləndirilməsi.

Funksional, sistemli və tipoloji konsepsiyalar (A. Barsuk, İ. Barenbaum, İ. Morqenşteyn və Azərbaycan alimlərinin əsərləri). Kitabşünaslığın informasiya konsepsiyası (V. İvaniçki, R. Gilyarevski, S. Omilyançuk və s.).

XX əsrin 80-90-cı illərində aparıcı rus alimlərinin kitabşünaslığın aktual problemlərinə dair işləri və onların analizi.

Azərbaycanda kitab tarixi, nəşriyyat fəaliyyəti və kitabçılıq üzrə Ə. Mirəhmədov, B. Allahverdiyev, A. Xələfov, İ. Vəliyev, A. Qazıyev, V. Qəhrəmanov, A. Musayeva, M. Nağıyev, K. Şərifli, C. Nağıyeva, H. Həsənov, K. Aslan və başqa aparıcı alimlərin xidmətləri.

### 2. Kitabşünaslığın yaranması və inkişafı

Kitabşünaslığın tarixilik prinsipi: yaranma mənbələri və inkişaf mərhələləri. Orta əsrlərdə kitabşünaslıq nəzəriyyəsinin formalaşması.

Orta əsr Azərbaycan kitabşünasları və onların fikirləri: N. Gəncəvi, N. Tusi, Ş.İ. Xətai, M. Füzuli. Əlyazmalar, kitab istehsalı, boya texnologiyası və kitab sənətinə dair M.H. Naxçıvani, S. Əfşar və başqalarının əsərlərinin təhlili.

XIX əsrdə Azərbaycanda kitabçılıq və kitabşünaslıq baxışları: H. B. Zərdabi, M. F. Axundzadə, F. Köçərli, N. Nərimanov, Ö. F. Nemanzadə, C. Məmmədquluzadə, S. Mümtaz və b.

XIX əsrin I yarısında Azərbaycanda kitabsünaslıq fikrinin inkişafi. XX əsrin II yarısında Azərbaycan kitabşünaslarının fəaliyyəti və əsas əsərlərinin təhlili (Ə. Mirəhmədov, C. Qəhrəmanov, B. Allahverdiyev, A. Xələfov, H. Həsənov və b.).

Kitabşünaslığın komplekslik (sistemlilik) nəzəriyyəsi: tərkib hissələri, əsas elmi və xüsusi fənlər. “Kitab – kitabçılıq işi – oxucu” kompleksliyi. 1970-1980-ci illərdə komplekslilik (sistemlilik) nəzəriyyəsinin inkişafı.

Kitabın mahiyyəti, quruluşu və kommunikasiya sistemində yeri. Nəşrlərin tipologiyasının nəzəri əhəmiyyəti.

Funksional yanaşma: yaranması, inkişafı, metodologiyası və XX əsrin 60-70-ci illərində kitabşünaslığın nəzəri tədqiqatlarında tətbiqi. Funksional metodun effektivliyi və onun kitabşünaslığın əsas istiqaməti kimi rolu.

Kitabın mahiyyətinin tədqiqində sistemli yanaşmanın və tipoloji motodun tətbiqi: kitabın sosial obyekt və elmi kateqoriya kimi təhlili. Bu sahədə kitabşünas alimlərin əsərlərinin icmalı.

### 3. Kitabşünaslıq və kitabçılıq işi elmi biliklər sistemi kimi

Kitabşünaslıq terminologiyasının izahı. Kitabşünaslığın obyekti, predmeti, strukturi və tərkib hissələri. Kitabşünaslığın elmlər sistemi daxilində yeri.

Əsas kitabşünaslıq fənlər: kitab tarixi, kitab nəzəriyyəsi, kitab metodologiyası, kitab tipologiyası, redaktənin nəzəriyyə və təcrübəsi, mətnşünaslıq, kitab sosiologiyası, kitab sənəti, kitab mədəniyyəti, nəşriyyat işi tarixi və nəzəriyyəsi, kitab ticarətinin nəzəriyyəsi və tarixi, kitab iqtisadiyyatı, əqli mülkiyyət, müəllif və nəşriyyat hüququ, bibliofiliya və s.

Kitabşünaslığın qohum fənlərlə sərhədləri: kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, oxucuşünaslıq, informatika, sənədşünaslıq, ədəbiyyatşünaslıq, elmşünaslıq, fəlsəfə, sosiologiya, pedaqogika, jurnalistika və s. qarşılıqlı əlaqələrin təhlili.

Kitabşünaslığın struktur altfənləri: kodikologiya, arxeoqrafiya, inkunabulaşünaslıq, kitab çapı tarixi, müəllif hüququnun tarixi, məcburi nüsxə tarixi, kitab sənəti tarixi, çap məhsullarının yayım tarixi.

### 4. Kitab və cəmiyyət

Kitabın sosial mahiyyəti və funksiyaları. Kitab cəmiyyətin sosial yaddaş forması və intellektual potensialının daşıyıcısı kimi. Kitabın fundamental sosial funksiyaları: kommunikativ, koqnitiv (idrak), mədəni-maarif, tərbiyəvi və estetik funksiyalar. Kitabın cəmiyyətin informasiya strukturunda yeri və rolu.

Kitab mədəniyyəti və mənəvi dəyərlər. Kitabın ümumbəşəri və milli mədəniyyətin formalaşmasında rolu. Maddi və mənəvi mədəniyyət abidəsi kimi kitabın aksiologiyası (dəyərlər nəzəriyyəsi). Kitabın milli özünüdərk və dövlətçilik təfəkkürünün inkişafındakı əhəmiyyəti. Azərbaycanın klassik və müasir mütəfəkkirlərinin irsində kitabın cəmiyyət quruculuğuna təsiri.

Mütaliə sosiologiyası və oxucu tələbatı. Kitab və oxucu münasibətlərinin kitabşünaslıq baxımından təhlili. Mütaliə mədəniyyəti anlayışı və onun cəmiyyətin inkişaf səviyyəsi ilə qarşılıqlı əlaqəsi. Oxucu marağının və tələbatının formalaşmasına təsir edən amillər (sosial, peşəkar, yaş və gender amilləri). Oxucu tipologiyası və mütaliənin motivasiyası. Cəmiyyətdə mütaliənin vəziyyətinin öyrənilməsində sosioloji tədqiqatların (anket, monitorinq, fokus-qrup) rolu.

Kitab kütləvi kommunikasiya sistemində. Kitab və digər kütləvi informasiya vasitələri (KİV) arasında qarşılıqlı münasibətlər: rəqabət və inteqrasiya problemləri. İnformasiya cəmiyyətində "ekran mədəniyyəti" və "kitab mədəniyyəti"nin vəhdəti. Kitabın internet və rəqəmsal media mühitində sosial statusunun transformasiyası.

Kitabın təbliğatı və cəmiyyətin maarifləndirilməsi. Kitabın cəmiyyətdə populyarlaşdırılması metodları: kitab bayramları, sərgilər, ədəbi mükafatlar və "best-seller" siyasəti. Kitabın elmin, təhsilin və yaradıcılığın inkişafında strateji vasitə kimi xarakteristikası.

Rəqəmsal dövrdə kitab və cəmiyyət. İnformasiya bolluğu şəraitində "keyfiyyətli kitab" problemi. Elektron mütaliə və onun sosial-psixoloji fəsadları/üstünlükləri. Kitabın gələcəyinə dair futuroloji proqnozlar: "kitabsız cəmiyyət" təhlükəsi və ya kitabın yeni formatda renessansı.

### 5. Kitabşünaslıq tədqiqatlarının obyekti kimi kitabın tədqiqi

Kitab anlayışının konseptual əsasları. Kitabın elmi tərifi, onun mahiyyətinə dair müxtəlif elmi yanaşma və ənənələr. Görkəmli kitabşünas alimlərin (M. Yanovski, P. Berkov, A. Barsuk, İ. Barenbaum, A. Sidorov, N. Sikorski, E. Nemirovski, A. Belovitskaya, A. Çernyak,

Ə. Mirəhmədov, B. Allahverdiyev, K. Aslan və b.) nəzəri irsi. Kitabın sosial-kommunikativ mahiyyəti və sistem-struktur xüsusiyyətləri.

Kitabın tarixi və təkamülü. Kitab tarixinin obyekti, predmeti və dövrləşmə problemləri. Yazı mədəniyyətinin və kitabın yaranmasının ümumi qanunauyğunluqları. Azərbaycanda və dünyada kitabın inkişaf mərhələləri. Mətnşünaslıq və mətn nəzəriyyəsi: kitab mətnlərinin tipləri, üslub və janr xüsusiyyətləri. Kitabın konkret və müqayisəli tarixinin öyrənilməsi metodikası. Kitab abidələrinin kitabşünaslıq təhlili: filiqram, şrift, ekslibris, avtoqraf, haşiyə və s. elementlərin elmi əhəmiyyəti.

Kitabın sosial funksiyaları və sənəd-kommunikasiya sistemi. Kitabın cəmiyyətdəki rolu və təyinatı. Kitab inkişaf edən funksional sistem kimi. Sənəd-kommunikasiya və kütləvi informasiya vasitələri sistemində kitabın yeri. Ümumbəşəri və milli dəyərlərin qorunmasında kitabın əhəmiyyəti. Kitab və oxucu münasibətləri: mütaliənin sosioloji və kitabşünaslıq aspektləri. Oxucu tələbatının müəyyənləşdirilməsi və təsnifatı (yaş, peşə, təhsil meyarları üzrə).

### 6. Kitabın tipologiyası və sistemləşdirilməsi

Kitabşünaslıq anlayışları sistemi: "əsər", "mətn", "kontekst", "nəşr". Kitabın tipologiyasının elmi-nəzəri əsasları: tip, növ, sinif və qrup kateqoriyalarının mahiyyəti. Tip əmələ gətirən əlamətlər: məqsəd təyinatı, predmet-məzmun, metod və janr.

Məqsəd təyinatı üzrə kitabın təsnifatı: elmi, tədris, istehsalat, rəsmi, soraq-məlumat, elmi-kütləvi, ədəbi-bədii və s.

Nəşr tipləri: seriyalı, dövri və qeyri-dövri nəşrlər sistemi. Kitabşünaslıq dövri mətbuatının təşəkkülü və inkişafı. “Kitablar aləmində”, “Kitabşünaslıq və nəşriyyat işi”, “Kitabşünaslıq və redaktor sənəti” jurnallarında kitabşünaslıq problemlərinin əksi.

Universal tipoloji model və sistemli meyar. Kitabın sistemləşdirilməsində universal meyarların tərkibi: məzmun, oxucu təyinatı, informasiyanın işarə təbiəti, material konstruksiyası və dövrilik. Təsnifatın üç səviyyəsi: biliklərin, fəaliyyət sahələrinin və kitab istehsalının sistemləşdirilməsi. Ayrı-ayrı elm sahələri üzrə kitabın tipoloji xüsusiyyətləri.

Kitabın material konstruksiyası və poliqrafik icrası. Kitabın hissə və sistemlərinin qarşılıqlı əlaqəsi. Konstruktiv elementlər: blok, dəftər, cild, titul, forzas, frontispis. Kitab sahəsinin elementləri: format, abzas, kolontitul. Poliqrafik proseslər: yığım, orijinal-maket, bükmə, tikmə və cildləmə. Materialların (kağız, boya və s.) keyfiyyət meyarları.

Kitabın arxitektonikası və soraq-məlumat aparatı. Kitabın bədii tərtibatı: şrift qarnituru, kompozisiya, illüstrasiya, qrafika və reproduksiya. Soraq-məlumat aparatı: mündəricat, rubrikasiya, ön söz, giriş məqaləsi, şərhlər, istinadlar və köməkçi göstəricilər.

Müasir kitab mədəniyyəti və rəqəmsal transformasiya. Kitab mədəniyyət amili və dövrün sənədi kimi. Kitabşünaslıqda informasiya istiqamətinin formalaşması. Əlyazma, çap və elektron kitabların vəhdəti.

Elektron kitab (nəşr) kitabşünaslığın müasir obyekti kimi. Elektron nəşrlərin tipologiyası və ənənəvi kitablarla funksional əlaqəsi.

Elektron nəşriyyatın yaradılması, fəaliyyət istiqamətləri və informasiya texnologiyalarının kitabın yayılmasına təsiri.

### 7. Kitab nəşrinin əsasları. Redaktənin nəzəriyyəsi və təcrübəsi

Kitab nəşrinin texnoloji və konseptual strukturu. Kitab nəşri prosesinin mahiyyəti və müasir "yeni tipli kitab" anlayışı. Kitabın məzmun və forma vəhdətinin təkmilləşdirilməsi prinsipləri. Yeni poliqrafiya texnologiyalarının kitab işinin inkişaf perspektivlərinə təsiri. Kitabın daxili və xarici arxitektonikasında innovativ dəyişikliklər.

Yazılı mətnin formalaşması və kitaba çevrilməsi. Elmi və bədii təfəkkürün yazıya transformasiyası: müəllif ideyasının mətn formasında təzahürü. Əlyazma mətninin strukturu, təkmilləşdirilmə mərhələləri və nəşriyyat-poliqrafiya prosesi vasitəsilə kitaba çevrilməsi. Müəllif, redaktor və naşir münasibətlərinin etik və hüquqi aspektləri.

Redaktənin nəzəri-metodoloji əsasları. Redaktə işinin mahiyyəti, funksiyaları və elmi prinsipləri. Dünya nəşriyyat təcrübəsində redaktə modelləri. Azərbaycanın klassik redaktorluq məktəbi: Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Üzeyir Hacıbəyli və başqa ziyalıların redaktorluq fəaliyyətinin elmi ümumiləşdirilməsi və müasir dövrlə varislik əlaqələri.

Redaktənin metodikası və məntiqi əsasları.

Struktur və kompozisiya. Kitabın kompozisiya quruluşu, rubrikasiya sistemi və onların optimallaşdırılması.

Mətn üzərində iş. Mətn nəzəriyyəsi və redaktənin məntiqi əsasları. Əsərin dil-üslub xüsusiyyətlərinin, faktoloji bazasının və terminoloji dəqiqliyinin yoxlanılması.

Diferensial redaktə. Müxtəlif ədəbiyyat növlərinin (elmi, tədris, bədii, uşaq və s.) redaktəsinin spesifik xüsusiyyətləri və effektivlik meyarları.

Nəşriyyat təcrübəsinin elmi təhlili. Müasir Azərbaycan nəşriyyatlarının fəaliyyət istiqamətləri və redaktə mədəniyyəti. Görkəmli alim və redaktorların (Ə. Mirəhmədov, T. Rüstəmov, K. Aslan və b.) nəşriyyat-redaktorluq fəaliyyətinin təhlili. Sahə üzrə tədris vəsaitlərinin və elmi dərsliklərin hazırlanması problemləri.

**8. Kitabçılıq işi kitabşünaslıq tədqiqatlarının obyekti kimi**

Kitabçılıq işinin strukturu və komponentləri. Kitabçılıq işinin (nəşriyyat, poliqrafiya, kitab ticarəti və kitabxana işi) vəhdəti və onların qarşılıqlı əlaqəsinin elmi-tədqiqat problemləri. Kitabçılıq işinin sosial-iqtisadi sistem kimi xarakteristikası.

Nəşriyyat işinin nəzəriyyəsi və praktikası. Nəşriyyat işinin tarixi təkamülü və müasir inkişaf meylləri. Redaktə nəzəriyyəsinin nəşriyyat prosesində rolu. Strateji idarəetmə: nəşriyyat işində planlaşdırma və elmi proqnozlaşdırma (futurologiya) problemləri. Nəşrlərin tipologiyasının, həcminin, tirajının və qiymət siyasətinin (qiymətqoyma) elmi əsaslarla müəyyən edilməsi. Kitab nəşrinin iqtisadiyyatı: maya dəyəri, rentabellik və investisiya cəlbediciliyi. Kitab dizaynı və bədii konstruksiya məsələləri.

Poliqrafiya istehsalı və kitabın tərtibatı. Kitabın məqsəd və oxucu təyinatına uyğun daxili və xarici arxitektonikasının hazırlanması. Müasir poliqrafiya texnologiyaları: rəqəmsal və ofset çapı, kitabın texniki icrası və keyfiyyət standartları. Poliqrafiyanın kitab mədəniyyətinə təsiri.

Kitab ticarəti və bazar münasibətləri. Kitab ticarətinin nəzəriyyəsi kitabşünaslığın ayrılmaz tərkib hissəsi kimi. Kitab ticarətinin funksiyaları: iqtisadi, sosial və mədəni aspektlər. Bazar iqtisadiyyatı şəraitində kitabın əmtəə kimi xüsusiyyətləri. Marketinq və logistika: alıcı (istehlakçı) və oxucu probleminin vəhdəti. Kitab ticarətinin təşkili texnologiyası: topdansatış, pərakəndə satış və elektron ticarət (e-commerce). Kitab nəşrinin kitabxana işi və kitab kollektorları ilə qarşılıqlı əlaqə mexanizmləri.

Kitab və mətbuat statistikası. Kitab statistikasının nəzəri-metodoloji əsasları və tarixi inkişafı. Mənbəşünaslıq bazası: statistikanın əsas vəzifələri və məlumat mənbələri (cari və retrospektiv biblioqrafik göstəricilər, rəsmi qeydiyyat materialları). Kitab nəşrinin inkişaf dinamikasının təhlilində statistikanın rolu. Beynəlxalq çap statistikası və UNESCO standartları. Statistik məcmuələrin elmi-praktiki əhəmiyyəti. Sahə üzrə fəaliyyət göstərən elmi idarə və milli biblioqrafiya mərkəzlərinin xarakteristikası.

### 9. Dünyada və Azərbaycanda kitab ticarəti və yayımı

Kitab ticarətinin nəzəriyyəsi və dünya təcrübəsi. Kitab ticarətinin sosial-iqtisadi mahiyyəti və funksiyaları. Beynəlxalq kitab bazarının strukturu və əsas mərkəzləri. Avropa və ABŞ-da kitab ticarəti modelləri: pərakəndə satış şəbəkələri, kitab klubları və onlayn platformalar (Amazon və s.). Beynəlxalq kitab yarmarkaları (Frankfurt, London, Bolonya) və onların qlobal kitab mübadiləsində rolu.

Azərbaycanda kitab ticarətinin tarixi təkamülü. Orta əsrlərdə əlyazma kitablarının yayımı və ticarəti (vərraqlıq sənəti). XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda kitab ticarətinin dünyəviləşməsi. H. Z. Tağıyev, O. Akopov, Q. İbrahimov və digərlərinin kitab mağazaları və nəşriyyat-ticarət fəaliyyəti. AXC dövründə kitab yayımı məsələləri.

Sovet dövrü və müstəqillik mərhələsi. Azərbaycanda dövlət kitab ticarəti sisteminin formalaşması ("Azərkitab" birliyi). Kitab kollektorlarının rolu. Müstəqillik illərində kitab ticarətinin transformasiyası: dövlət inhisarından azad bazar münasibətlərinə keçid. Müasir Azərbaycanın kitab bazarında özəl sektorun (nəşriyyat-evləri, distribütor şirkətlər) fəaliyyəti.

Kitab marketinqi və müasir yayım texnologiyaları. Kitabın əmtəə kimi xüsusiyyətləri. Kitab bazarının seqmentləşdirilməsi və hədəf kütləsinin müəyyənləşdirilməsi. Kitab ticarətində müasir texnologiyalar: E-ticarət (online bookstores), elektron kitabların (e-books) və audio-kitabların satışı və yayımı platformaları. Kitabın reklamı, PR və "best-seller" fenomeninin yaradılması metodları.

Kitab yayımının hüquqi və iqtisadi tənzimlənməsi. Kitab ticarətində müəllif hüquqlarının qorunması və piratçılığa qarşı mübarizə. Vergi güzəştləri (ƏDV-dən azad olma və s.) və dövlətin kitab yayımı siyasəti. Azərbaycan kitabının beynəlxalq bazara çıxarılması problemləri və perspektivləri.

“Azərbaycan mədəniyyəti – 2040” Strategiyası və kitabşünaslığın yeni sosial vəzifələri.

### 10. Azərbaycanda kitabşünaslıq tədqiqatlarının təşkili və elmi mərkəzlər

Kitabşünaslıq tədqiqatlarının institusional strukturu. Azərbaycanda və xarici ölkələrdə kitabşünaslıq mərkəzləri, cəmiyyətləri və universitet kafedralarının elmi fəaliyyəti. Kitabşünaslığın tarixi, nəzəri və metodoloji problemlərinin işlənilməsində akademik qurumların rolu.

Azərbaycanın əsas elmi-tədqiqat və təhsil mərkəzləri.

Bakı Dövlət Universiteti İnformasiya və sənəd menecmenti fakültəsinin Redaksiya-nəşriyyat işi kafedrası milli kitabşünaslığın fundamental elmi mərkəzi kimi.

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu qədim kitab mədəniyyəti, mətnşünaslıq və paleoqrafik tədqiqatların mərkəzi kimi.

Azərbaycan Milli Kitabxanasının və AMEA Mərkəzi Elmi Kitabxanasının kitabşünaslıq konsepsiyalarının formalaşmasında, kitab abidələrinin tədqiqində və elmi-metodiki bazanın yaradılmasında rolu.

Elmi kadr hazırlığı və təhsil pillələri. Ali peşə təhsili sistemində (bakalavriat və magistratura) kitabşünas və naşir kadrların hazırlanması strategiyası. Yüksəkixtisaslı elmi kadrların hazırlanmasında dissertantura və doktorantura mərhələlərinin əhəmiyyəti; tədqiqat istiqamətlərinin və problematikasının müasir elmi çağırışlara uyğunlaşdırılması.

Kitabşünaslıq üzrə elmi kommunikasiya və dövri mətbuat. Sahəvi tədqiqatların inkişafında elmi jurnalların rolu. Fundamental nəşrlər: “Kitab: tədqiqat və materiallar”, “Poliqrafçı və redaktor”, “Kitabçılıq işi”, “Kitab biznesi”, “Poliqrafiya”.

“Kitabxanaşünaslıq və biblioqrafiya”, “Kitabşünaslıq və nəşriyyat işi”, “Kitabxanaşünaslıq və informasiya”, “Kitabşünaslıq və redaktor sənəti” kimi elmi-nəzəri jurnallarda kitabşünaslığın elmi-nəzəri və təcrübi-metodik problemlərinə dair sənəd resursları.

AMEA Mərkəzi Elmi Kitabxanasının, Əlyazmalar İnstitutunun və Milli Kitabxananın “Elmi əsərləri”. BDU-nun “Dil və ədəbiyyat” jurnalında kitabşünaslıq məsələlərinin işıqlandırılması.

Elmi-metodiki ədəbiyyat və beynəlxalq əlaqələr. Monoqrafiyalar, dərslik və dərs vəsaitləri, ensiklopediyalar və lüğətlərin kitabşünaslıq fikrinin inkişafında əhəmiyyəti. Beynəlxalq kitabşünaslıq konfransları, simpoziumlar və elmi layihələr. Beynəlxalq elmi əlaqələrin tədqiqatların səviyyəsinin yüksəldilməsində və qlobal kitab məkanına inteqrasiyada rolu.

Milli kitabşünaslıq məktəbinin nümayəndələri. Müasir dövrdə kitabşünaslıq, nəşriyyat işi və redaktə sənətinin nəzəri-tarixi problemləri ilə bağlı Knyaz Aslan, Ələmdar Bayramov, Nailə Mehrəliyeva, Rasim Süleymanov, Leyla Abasova və digər mütəxəssislərin elmi araşdırmalarının xarakteristikası və əsas nailiyyətləri.

**YOXLAMA SUALLARI**

1. Ulu Öndər Heydər Əliyev və kitab mədəniyyəti
2. Kitabşünaslıq kompleks elm kimi: inteqrativ xüsusiyyətləri və struktur bölmələri.
3. Azərbaycanda orta əsr əlyazma kitab mədəniyyəti.
4. Nəşriyyat işi, redaktə nəzəriyyəsi, poliqrafiya, kitab ticarəti və statistikasının qarşılıqlı əlaqəsi.
5. Kitabşünaslığın obyekti və predmeti.
6. Kitabşünaslığın elmlər sistemində yeri.
7. Kitabşünaslığın humanitar və sosial elmlərlə fənlərarası əlaqənin xarakteristikası.
8. Kitabın funksiyaları və sosial yaddaş institutu kimi cəmiyyətdə rolu.
9. Milli kitabşünaslığın inkişafı və görkəmli alimlərin elmi-nəzəri irsi.
10. Kitabşünaslıq elminin inkişaf dinamikası.
11. Dünyada və Azərbaycanda kitabşünaslıq fikrinin yaranması və əsas mərhələləri.
12. Kitabçılıq işi ilə kitabşünaslıq elmi nəzəriyyəsinin qarşılıqlı əhəmiyyəti.
13. Redaktənin nəzəri-təcrübi aspektləri.
14. Kitabın arxitektonikasının formalaşmasında redaktor sənətinin əhəmiyyəti.
15. Rəqəmsal kitabşünaslıq və elektron nəşrlərin tipologiyası.
16. Elektron nəşriyyatların fəaliyyət prinsipləri və texnoloji çağırışlar.
17. Kitabşünaslıq üzrə aparıcı dövri mətbuat orqanlarının və elmi nəşrlərin xarakteristikası.
18. Azərbaycan Respublikasında dövlət və özəl nəşriyyat sektorunun qanunvericilik bazası və iqtisadi əsasları.
19. Bakı Dövlət Universitetinın nəşriyyat redaktorları üzrə kadr hazırlığında rolu.
20. Rəqəmsal mühitdə Azərbaycan kitabşünaslığının inkişaf perspektivləri.

**ƏDƏBİYYAT**
**A) Azərbaycan dilində**


1. Abasova, L. (2020). Azərbaycan Dövlət Nəşriyyatının yaranması və fəaliyyəti: Monoqrafiya. Bakı, Təhsil nəşriyyatı.
2. Allahverdiyev, B. (2003). Ümumi kitab tarixi. Azərbaycan Milli Ensiklopediyası Nəşriyyat-Poliqrafiya Birliyi.
3. Allahverdiyev, B. (2011). Kitabşünaslığın əsasları: Monoqrafiya. Bakı, UniPrint.
4. Allahverdiyev, B. (2017). Kitabın tipologiyası: Monoqrafiya. Bakı, ÇapArt Nəşriyyat Evi.
5. Allahverdiyev, B., & Abasova, L. (2018). Mətn nəzəriyyəsi: Dərs vəsaiti. Bakı, ÇapArt.
6. Aslan, K. (2010). Dünya kitabxanalarının tarixi: Dərs vəsaiti.

7. Aslan, K. (2011). Qədim və orta əsrlər dünya kitabxanaları: Dərs vəsaiti. Bakı Universiteti nəşriyyatı.
8. Aslan, K. (2015). Dünya kitab tarixi: Dərs vəsaiti. Bakı Universiteti nəşriyyatı.
9. Aslan, K. (2022). Oxu mədəniyyəti: keçmişdən bu günə. Bakı, Milan nəşriyyatı.
10. Aslan, K., Mehrəliyeva, N. (2024). Nəşriyyat işi və redaktə məsələləri: Dərs vəsaiti. Bakı, Mütərcim nəşriyyatı.
11. Aslan, K. (2024). Redaktor sənəti: Dərs vəsaiti. Bakı, Elm nəşriyyatı.
12. Aslan, K., & Süleymanov, R. (2015). Azərbaycan kitabşünaslığı: Dərs vəsaiti. Bakı Universiteti Nəşriyyatı.
13. Axundov, B., & Mahmudov, M. (2006). Nəşriyyat işinin əsasları. Aspoliqraf nəşriyyatı.
14. Bayramov, Ə. (2014). Azərbaycanda özəl nəşriyyat sistemi. Filologiya Məsələləri, (1), 430-434.
15. Bayramov, Ə. (2014). Nəşriyyatların struktur quruluşu. Kitabxanaşünaslıq və İnformasiya, 1(13), 72-77.
16. Bayramov, Ə. (2014). Müasir nəşriyyat sistemində elektron nəşr texnologiyalarının yeri. Kitabşünaslıq və Nəşriyyat işi, (1), 34-38.
17. Ələsgərova, İ. (2015). Kitabın bədii və texniki tərtibatı: Monoqrafiya. Azərbaycan.
18. Quliyeva, S. (2006). Azərbaycan soraq-məlumat ədəbiyyatı. Təhsil.
19. Süleymanov, R. (2020). Ulu öndər Heydər Əliyev və Azərbaycanın kitab mədəniyyəti: Monoqrafiya. Ləman Nəşriyyat-Poliqrafiya.
20. Vəliyev, İ. (2004). Redaksiya-nəşriyyat işinin əsasları. Günəş.
21. Vəliyev, İ. (2009). Redaktənin əsasları: nəzəriyyə və təcrübə. Günəş.
22. Zəkiyev, İ. (2000). Azərbaycan kitabının inkişaf yolu (Qədim dövrdən XIX əsrin sonuna qədər). Azərbaycan Ensiklopediyası Nəşriyyat Poliqrafiya Birliyi.

**B) İngilis dilində**

1. McKenzie, D. F. (1999). Bibliography and the Sociology of Texts. Cambridge: Cambridge University Press.
2. Feather, J., & Sturges, P. (2003). International Encyclopedia of Information and Library Science. London: Routledge.
3. Grafton, A., & Williams, L. M. (2006). Worlds Made by Words: Scholarship and Community in the Modern West. Cambridge, MA: Harvard University Press.
4. Febvre, L., & Martin, H.-J. (1997). The Coming of the Book: The Impact of Printing 1450–1800. London: Verso.
5. Darnton, R. (2009). The Case for Books: Past, Present, and Future. New York: PublicAffairs.
6. Johns, A. (1998). The Nature of the Book: Print and Knowledge in the Making. Chicago: University of Chicago Press.
7. Eisenstein, E. L. (1979). The Printing Revolution in Early Modern Europe. Cambridge: Cambridge University Press.
8. Raven, J. (2007). The Business of Books: Booksellers and the English Book Trade 1450–1850. New Haven: Yale University Press.
9. McKitterick, D. (2003). Print, Manuscript and the Search for Order, 1450–1830. Cambridge: Cambridge University Press.
10. Darnton, R. (1990). The Kiss of Lamourette: Reflections in Cultural History. New York: W. W. Norton & Company.
11. Bowers, F. (1998). Principles of Bibliographical Description. New Castle: Oak Knoll Press.

12. Febvre, L. (1982). A New History of the Book. London: Verso.
13. Gaskell, P. (1972). A New Introduction to Bibliography. Oxford: Clarendon Press.
14. Febvre, L., & Martin, H.-J. (1976). The Coming of the Book: The Impact of Printing 1450–1800. London: NLB.
15. McKenzie, D. F. (1986). Bibliography and the Sociology of Texts: Revisited Essays. Cambridge: Cambridge University Press.